UNİKAL

№08 (2238) 28 fevral 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Ermənistan sülh sazişindən yayınmaq üçün yeni “diplomatik gedişlər” etməyə başlayıb



Səh.9

## Həkimdən Teymur Musayevə sərt etiraz

”Hörmətli səhiyyə nazirimiz Teymur müəllim, istəyirəm ki, indidən oğlumun stomatoloq ixtisasına marağını artırım. Bunun üçün onunla söhbət etmişəm, nəticəsi də var. Onun 11 yaşı var, planlarımızı indidən qururuq”. ”Unikal” xəbər verir ki, bu sözləri həkim Rəsul Nurəddinov ”Facebook” hesabında yazıb. ”Mənim kimi bir çox kolleqalarım da bu mövzuda öz övladları ilə söhbət edirlər. Amma şəxsən sizə bir neçə sualım var, ümid edirəm ki, bu suallara cavab alınacaq. Çünki planımızın reallaşması sizin cavabınızdan asılıdır. Həkimlər sizdən narazıdır. Biz həkimləri çox incidirsiniz, sertifikasiya imtahanlarında suallara səhv cavab yazmağı tələb edirsiniz ki, imtahan komissiyası onu düzgün kimi dəyərləndirsin.

Səh.6

## “Spirtlərin hazırlanması prosesinə və satışına nəzarət olunmalıdır”



Kliniki Tibbi Mərkəzin baş toksikoloqu, tibb elmləri doktoru Azər Maqsudov ”Unikal”a müsahibə verib. O, son günlər 20-yə yaxın şəxsin spirtdən zəhərlənərək ölməsinin səbəblərindən, qış fəslində dəm qazından boğulmaların artmasından və bu aylarda insanların əsasən hansı zəhərlənmə...

Səh.4

## Oliqarxlardan yeni soyğun hazırlığı...




Mart ayında Azərbaycanda 12 günlük - uzun bayram tətili gözlənilir. Belə ki, Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 və 28 mart iş günləri ilə müvafiq olaraq 10 mart və 1 aprel istirahət günlərinin yerləri dəyişdirilib.

Səh.8

## İsa Qəmbər Bakıda erməni deputatlarla görüşüb? - İDDİA



Müsavat Partiyasının başqanı, Azərbaycan parlamentinin sabiq sədri İsa Qəmbərin Bakıda erməni deputatlarla gizli danışıqlar apardığı iddia edilib. ”Unikal” xəbər verir ki, bu iddianı sabiq müdafiə naziri Rəhim Qazıyev səsləndirib. O bildirib ki, İsa Qəmbər bir qrup erməni deputatın Azərbaycan və Ermənistan arasındakı münaqişəni...

Səh.6

08_27 IYUl-QARA.qxd 2/27/2025 10:43 PM Page 2



# Aygün Kazımova ilə Röya aparıcının toyunda dava edib



***Aparıcı Kamilə Babayeva toyundan və toyunda Xalq artistləri Aygün Kazımova ilə Röya Ayxanın mübahisə etməsindən danışıb.***

Bu barədə o "Pərvizə görə"də açıqlama verib. Kamilə deyib ki, məsələ ilə bağlı yazılanlar təhrif olunub və həyat yoldaşı ona şou-biznes nümayəndələrini məclisə dəvət etməsi ilə bağlı qadağa qoymayıb: "Burda məsələ təhrif olunub. Həyat yoldaşım istəyirdi ki, hər iki tərəfdən qonaq sayı az olsun. Mən də dedim ki, nə danışırsan, dostum, tanışım, ətrafım çox böyükdür. Sizdə də həmçinin. İstəyirdi ki, bunu balaca, səmimi məclisdə qeyd edək. Onun şou-bizneslə problemi olsaydı, deməli, özünü tanıyan insan deyil. Onda niyə bu qızı sevirsən, bu qızla ailə qurursan?! Sözügedən məsələyə nə sevindi, nə kədərləndi. Başqa münasibət gözləyə bilərdim. Heç bir emosiya vermədi. Bu illər ərzində məsələ daha çox kənarda müzakirə olundu. Daxildə isə heç müzakirə mövzusuna çevrilmədi. Ən kritik anlar olur, sözün çəp gəlir, istəyərsən ən acı məqamından toxunasan. Bir dəfə də bu mövzunun yanından, ətrafından bir söz deyilmədi".

# Mətanətin mühafizəçisi jurnalistləri hədələyib, qovdu : "Elə etməyin ki, sizi..."

***Müğənni Mətanət Əsədova ad günündə müxbirlərin məclisə daxil olmasını qadağan edib.***

Bu barədə aparıcı Zümrüd Bədəlova "Gün ortası" verilişində deyib. O, vurğulayıb ki, müğənninin mühafizəçiləri qarlı gündə ad gününü işıqlandırmağa gələn media nümayəndələrinə hörmətsizlik edib:

"Mətanət xanım yaxşı ifaçıdır. Amma şəxsi münasibətlər efirə təsir etməməlidir. Burada iki variant var: Ya onun mühafizənin davranışından xəbəri yoxdur, ya da ona zəng ediblər, Mətanət də deyib ki, bu barədə məni heç kim yığmasın. Sizdən ad günü libasınızda kamera qarşısına keçib bircə kəlmə təbrik alıb, özünüzə nə arzulayırsınız ondan danışacaqdınız. Müxbirlərin içəri girilməyinə icazə verilmirsə, həmin hüquqları qoruyuruq. Əgər "olmaz" kəlməsini deyirsinizsə, onsuz kamera içəri keçmir. Başqa vaxt xarici jurnalistlərə, elə qardaş Türkiyədəkilərə həsəd aparırıq ki, nə yaxşı hər şeyi vaxtında görüb çəkirlər. Bəs,



biz də gəlmişdik də.

ATV-dən iki verilişin və digər kanalların müxbirləri orada idi. Ən azından o qarlı havada aşağı düşüb onları qarşılamaq lazım idi. Amma sizin mühafizəçiniz müxbirimizə deyib ki, "o biriləri çölə atdırdım, elə etməyin ki, sizi də atım". Sanki bu insanlar onun üçün nədir? Söhbət mətbuatdan gedir. Atdırıb nə edəcəksiniz? Biz sizi üzünüzü göstərib ifşa da edə bilərik. Amma etika qaydalarına zidd olduğu üçün bunu etmirik. Mətanət xanım, mətbuat sizi sevir və sadəcə həmin gün yanınızda olmaq istədi. Mətbuata qarşı belə davranış qətiyyən olmaz. Bilirsiniz, ən düzgün davranış nə olmalı idi? Bircə kəlmə deyərdiniz ki, kameraları söndürün, gəlin içəridə əyləşin, yeyin-için. Heç müxbirlər onu da etməyəcəkdilər. Çünki müxbirlər mədəniyyətlərini qoruyurlar. Ən azı foyedə açıqlama verərdiniz.

Bu, mətbuata qarşı olan böyük hörmətsizlikdir. Bu günə qədər bir çox konsertlərdə mühafizəçilərin belə davranışını görmüşük. Onların davranışı birbaşa sizə dəlalət edir. İndi deyəcəksiniz ki, xəbərim olmayıb, halbuki olmalı idi. Xəbəriniz yoxdursa, mən deyim, bilin. Mühafizəniz o qarda, çovğunda gələn gənclərimizə, mətbuat içşilərinə, ağır kameralı operatorlara, o qarlı yolda gələn sürücüyə hörmətsizlik edib. Hörmətiniz bura qədər imiş. Bunu bildik, amma gözləməzdik. Televiziya, mətbuat sayəsində tanınıb, ulduz olub, sonra da onlara belə etmək olmaz". (axsam.az)



## "Oğlum açıq-saçıq geyinməyimə icazə verir" - Müğənni Xatun Əliyeva

***"Balaşdan sonra yalnız qaldım. Ən yaxın adamlar belə üzlərini məndən çevirdilər. Mənə dözə bilmədilər".***

"Unikal" xəbər verir ki, bu sözləri müğənni Xatun Əliyeva "Qonaqcanlı" verilişində deyib. O, hayatında sevdiyi şəxsin olduğunu etraf edib: "Bu 4 ildə həyatımda məni başa düşəcək insanlar olmadı. Hazırda həyatımda sevdiyim biri var. O da çox acılar yaşayıb. Onun da böyük itkisi var. Həmin gün onunla danışıb birgə ağladıq. Sevdiyim insandır. Bizi birləşdirən dərdlərimiz var. Dünyəvi problemləri həll etmək olar. Amma gənc yaşdakı itkilərlə barışmaq olmur".

Xatun son vaxtlar görünüşündə etdiyi dəyişikliklərdən də danışıb: "Oğlum icazə verib ki, açıq-saçıq geyinə bilərəm. Neçə vaxtdır, görünüşümdə dəyişiklik edirəm. Məni Beyonsa, Cennifer Lopezə oxşadırlar".

Qeyd edək ki, Xatunun qardaşı Balaş 2021-ci ildə xərçəngdən vəfat edib. /Axşam.az

## Sevinc xəstəxanaya yerləşdirildi

***Əkiz bacılardan biri Sevinc Səfərova xəstəxanalıq olub.***



Axşam.az-a sənətçinin xəstəxanadan görüntüsü daxil olub. Müğənni hazırda "İstanbul NS" klinikasındadır və əməliyyat olunub.

Müğənni Sevillə əlaqə saxlamağa çalışsaq da, o, bacısının hansı səbəbdən əməliyyat olunduğunu deməyib. Sənətçi Sevincin hazırda həkim nəzarətində olduğunu bildirib.

## "Belə möcüzə görməmişdim" - Nüşabə Ələsgərli

***Əməkdar artist Nüşabə Ələsgərli "7 Tamam" verilişində qonaq olub.***

Sənətçi proqramda qarlı havada yaşadığı çətin anlardan danışıb: "Bir dəfə maşını təzə almışdım və Yasamalda bir həmkarımgilə qonaq getmişdim. Axşam çıxanda gördüm ki, qar yağıb, yer də buz. "Tri korona" tərəfə gələndə maşının əyləci tutmadı. Aşağıda da uşaqlar oynuyur. Heç bilmədim nə edim. Qarşıdakı uşaqları vuracaqdım. Maşın dayanmırdı, üzüaşağı gedirdi. Necə qışqırdımsa, ay Allah, inanın ki, maşın fırlanlıb üzüyuxarı dayandı. Heç belə möcüzə görməmişdim. Məni soyuq tər apardı. Heç kimə də dəymədim".



# Qida istehlakı məlumatlarının bazası yaradılır

***Bu gün ölkəmizdə start verilən "Daha yaxşı qidalanma və daha təhlükəsiz qida üçün qida istehlakı məlumatları bazası" pilot layihəsinin açılışı və bu çərçivədə ilk seminar keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA), Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (AQTİ), Kənd Təsərrüfatı Nazirliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və digər qurumların nümayəndələri, eləcə də özəl sektorun təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Layihənin əsas məqsədi əhalinin bütün qruplarını əhatə edəcək qida istehlakı məlumatları bazasının yaradılması, qida təhlükəsizliyi ilə bağlı problemlərin aradan qaldırılmasına yönəlmiş bir sıra tədbirlərin hazırlanması, yığılmış məlumatlardan qida siyasətinin təkmilləşdirilməsi və aqrar siyasətin inkişafı üçün istifadə olunması, yerli mütəxəssislərin qida təhlükəsizliyi sahəsində ən yaxşı təcrübə və qlobal standartları öyrənməsinin təmin edilməsi və ölkəmizdə qida təhlükəsizliyi ilə sağlamlıq sahəsində əhəmiyyətli irəliləyişlərə nail olunmasından ibarətdir.

Seminarda çıxış edən AQTA sədri Qoşqar Təhməzli bildirib ki, qida istehlakı məlumatları bazası fərdlər, əhalinin müəyyən qrupları və ümumi əhali tərəfindən istehlak edilən qidanın miqdarı, növləri və istehlakla bağlı qanunauyğunluqlar haqqında toplanmış və təhlil olunmuş məlumatlar toplusudur. Bu baza insanların qidalanma zamanı üstünlük verdiyi məqamlar, rasionun tərkibi, porsiyaların həcmi, qidalanma tezliyi və vərdişləri kimi qida qəbulunun müxtəlif aspektləri ilə bağlı məlumatları özündə ehtiva etməklə, qidalanma üzrə seçimləri anlayaraq vəziyyəti qiymətləndirmək və bu seçimlərin sağlamlıq və rifaha təsirini təhlil etmək üçün istifadə olunur. Belə məlumat bazaları pəhriz meyillərini müəyyən etməyə, nutriyentlərin çatışmazlığı və ya artıqlığını qiymətləndirməyə, qidalanma vərdişlərindəki dəyişiklikləri izləməyə, eyni zamanda problemlərin həlli istiqamətində verilən qərarların və qidalanma proqramlarının effektivliyini qiymətləndirməyə kömək göstərərək, piylənmə və qida çatışmazlığı kimi sağlamlıqla bağlı problemlərin həlli üçün əvəzolunmaz bir alət rolunu oynayır. Tənzimləmə və idarəetmədə təmin etdiyi imkanlarla yanaşı, belə məlumat bazalarının istehlakçıların qidalanma meyilləri və nutriyent qəbulu barədə fərdi məlumatlılığı baxımından da müəyyən imkanları mövcuddur.

AQTA sədri vurğulayıb ki, gələcəkdə qida istehlakı ilə bağlı məlumatların mobil tətbiqlər və ağıllı mətbəx avadanlıqları vasitəsilə daha qüsursuz və dəqiq formada toplanıla bilməsi proyeksiya edilir. Bu texnologiyalar qida qəbulu, nutriyentlərin kompozisiyası və fərdiləşdirilmiş qidalanma tövsiyələri haqqında real vaxt rejimində məlumatların təqdim edə bilər ki, bu da öz növbəsində həmin məlumatların digər sağlamlıq məlumatları ilə inteqrasiyası nəticəsində qidalanma ehtiyacları və yanaşmalarının fərdi qaydada qiymətləndirilməsinə geniş imkanlar yarada bilər.

Tədbirdə çıxış edən FAO-nun Azərbaycandakı nümayəndəsi Nasar Hayat bildirib ki, 2025-ci ildə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) aclıqla mübarizə, qida təhlükəsizliyini təmin edilməsi və davamlı kənd təsərrüfatını təşviqi ilə bağlı qlobal səylərin 80 illiyini qeyd edir.

Daha sonra seminarda "Daha yaxşı qidalanma və daha təhlükəsiz qida üçün qida məhsullarının istehlakı məlumatları üzrə potensialın artırılması: Layihənin icmalı", "Qida təhlükəsizliyi, qidalanma və sağlam pəhriz üzrə Azərbaycana baxış" və "Qida məhsullarının istehlakı məlumatı - faydalar və beynəlxalq təcrübə" mövzularında məruzələr dinlənilib, müzakirələr aparılıb.

# Oliqarxlardan yeni soyğun hazırlığı...

## Bu il Novruz bayramı günlərində hotellərin qiymətləri daha da bahalaşacaq - Ağlasığmaz rəqəmlər!

***Mart ayında Azərbaycanda 12 günlük - uzun bayram tətili gözlənilir. Belə ki, Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 və 28 mart iş günləri ilə müvafiq olaraq 10 mart və 1 aprel istirahət günlərinin yerləri dəyişdirilib. Bu səbəbdən 27 və 28 mart tarixləri qeyri-iş günləri olacaq. 29-30 mart tarixləri isə şənbə və bazar günlərinə düşür. Bununla da Novruz tətili 11 gün davam edəcək.***

Belə uzun müddətli tətili fürsət bilən insanların istirahət planları qurmasından təbii heç nə yoxdur. Lakin...

Vətəndaşlar ciblərinə uyğun istirahət planları qurarkən də, əksəriyyəti müəyyən oliqarxların nəzarətindəki hotellərdə qiymət artımının planlarını qururlar.




Quru sərhədlərin hələ də bağlı olması xarici ölkələrə səyahət imkanlarının məhdudlaşmasına, yerli turistlərin əsasən ölkədaxili istirahət məkanlarına üz tutmasına səbəb olur. Bu isə otellərin doluluq səviyyəsini artırır, qiymət artımı isə qaçılmaza çevrilir.

Ötən illərin təcrübələri göstərir ki, bayram günlərində, xüsusilə də uzunmüddətli tətillərdə otel qiymətləri adi günlərlə müqayisədə xeyli artır.

Bəs görəsən, bu ilki Novruz bayramında vəziyyət necə olacaq? Qiymətlər nə qədər bahalaşacaq? Turistlər bu vəziyyətdə nə etməlidir?

BAKU.WS-in mövzu ilə bağlı bir neçə gün öncəki araşdırmasından aydın olub ki, Şahdağda yerləşən otellərdən birində 2 nəfərlik standart otağın 1 gecəlik qiyməti həftəiçi 180 manatdan başlayaraq təklif edilir. Həmin ərazidə yerləşən başqa bir oteldə isə bir günlük eyni xidmətin qiyməti 400 manatdır. Lakin hər iki oteldə bayram günlərində qiymətlər xeyli artacaq.

Qubada yerləşən lüks otellərdən birində standart 2 nəfərlik otağın 1 gecə üçün hazırkı qiyməti 215 manatdır. Lakin bayram gününə indidən rezervasiya etmək istədikdə qiymət 275 manat olaraq dəyişir. Qubanın digər gəzməli-görməli yerində məskən tutan lüks oteldə isə hazırda 1 gecəlik 2 nəfərlik standart otağın xərci mənzərəyə görə dəyişir. Məsələn, əgər otağınız göl mənzərəli olacaqsa məbləğ 170, dağ mənzərəli olacaqsa 140 manatdır. Müştərilər həmin otelin eyni otaqlarını bayram günləri 250-280 AZN-dən başlayan qiymətlərlə bron edə biləcək.

Lənkəranın dağ mənzərəli otellərindən birində bugünkü rezervasiya qiyməti 2 nəfərlik standart otaq üçün 140 manatdırsa, bu məbləğ bir ay sonra - mart ayının 21-dən etibarən 400-500 manat təşkil edəcək. "Martın 21-i oteldə bir gecəlik standart otaqda qonaqlama 500, 22-si isə 400 manat olacaq", - deyə otelin əməkdaşı bildirib.

İsmayıllıda yerləşən otellərdə də vəziyyət digərlərindən fərqlənmir. Belə ki, bayramda bu bölgədə yerləşən otellərə üz tutanlar iş günləri ilə müqayisədə bir qədər "tərləməli" olacaqlar. Hazırkı qiymət standart 2 nəfərlik otaqda 150 AZN-dirsə, bayramda otel eyni otağın qiymətini 50%-dən çox qaldıraraq 360 manat edəcək.

Tarixi küçələri, abidələri ilə gözoxşayan Şəkinin ən lüks otellərindən birində hazırkı rezervasiya məbləği 140-160 manat arasıdır. Bu qiymət bayram günlərində bir qədər dəyişsə də, insafən deyək ki, digərləri arasında bir az münasibdir. Bayram günləri Şəkiyə üz tutsanız otelin 1 gecəlik 2 nəfərlik standart otağı 230-250 AZN arası olacaq.

Uzunmüddətli tətil və daxili turizmə artan maraq fonunda deyə bilərik ki, orta səviyyəli otellərdə qiymətlərin 40-60% arasında bahalaşması gözlənilir. Lüks və beş ulduzlu otellərdə isə artım 70-100%-ə çata bilər. Bundan başqa, populyar turizm bölgələrində otel yerlərinin tez dolması ehtimalı yüksəkdir.

"Unikal"ın əməkdaşının araşdırması nəticəsində aydınlaşıb ki, builki bayram tətili günlərindəki qiymət artımının ötən ilki Novruz tətili zamanı müəyyənləşdirilən yüksək qiymətləri də vurub keçməsi gözlənilir. "Əvvəla, builki Novruz tətilinin xeyli uzun olması istirahətə getmək istəyənlərin sayını da xeyli artıracaq. Yeni hotellərə tələb keçən illə müqayisədə çox olacaq. Bu isə proqnozlaşdırılan qiymət artımının da keçən illə müqayisədə yüksək olacağını düşünməyə əsas verir" - deyə turizm mütəxəssislərindən biri qəzetimizə bildirib.

"Digər tərəfdən, təəssüf ki, turizm sektorunda rəqabət istənilən səviyyədə deyil. Bu da qiymətlərin ilbəil daha da yüksəlməsini şərtləndirir. Bölgələrdə 1, 2 ulduzlu, yaxud ümumiyyətlə ulduzsuz hotellərin sayı azdır. Halbuki həmin hotellərdə qiymətlər aşağı olur və sadə vətəndaşların cibi ilə xeyli dərəcədə uyğunluq təşkil edir. Lakin turizm sektorunda indi daha çox iri sahibkarların mövqeləri, müəyyən məmurların maraqları güclüdür. Onlar da 5 ulduzlu hotellərin inşasına maraq göstərirlər. Belə hotellərdə isə ucuz qiymətdən danışmaq mümkün deyil" - həmsöhbətimiz vurğulayıb.

O, əlavə edib ki, sərbəst iqtisadiyyatda qiymətlər tələb-təklif əsasında müəyyənləşir: "Lakin Azərbaycanın turizm sektorunda bahalılığı, üstəlik, xidmətin keyfiyyəti ilə tərs-mütənasiblik təşkil edən yüksək qiymətləri şərtləndirən yalnız bu amil deyil. Vətəndaşların daxili turizmə əlçatanlığını təmin etmək üçün bu sektorda rəqabət mühitinin güclənməsinə ehtiyac var. Hərçənd, belə bir mühit bölgələrdə lüks hotel sahibi olanların marağında deyil. Nəticədə biz tətil zamanlarında digər vaxtlarla müqayisədə qiymətlərin bəzən hətta 4-5 dəfə bahalaşdığını müşahidə edirik. Bəli, bayramlarda, yay tətili günlərində digər günlərə görə müəyyən qədər qiymət artımı təbiidir, bu, dünya təcrübəsində də belədir. Lakin 4-5 dəfə bahalaşmanı normal qarşılaya bilmərik Bu yalnız və yalnız anormallıqdır".

Beləliklə, həm açıqlanan rəqəmlərdən, həm də mütəxəssis rəylərindən belə başa düşmək olar ki, builki Novruz tətili zamanı da oliqarx hotelləri sadə vətəndaş üçün əlçatan olmayacaq. Üstəlik, belə getsə, turizm sektorunda ədalətli rəqabət tam formalaşmadığı təqdirdə, bir neçə il sonra sadə insanlar istirahətə yollanmağı tamam unudacaqlar...

***Toğrul Əliyev***

# Ermənistan sülh sazişindən yayınmaq üçün yeni “diplomatik gedişlər” etməyə başlayıb

***Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin iki bəndi hələ də razılaşdırılmayıb. Bunu jurnalistlərə açıqlamasında Ermənistanın Baş naziri Nikol Paşinyan deyib. Hökümət başçısı bildirib ki, ötən gün İrəvan saziş layihəsi ilə bağlı Bakıdan cavab alıb.***

”Bu, artıq sülh müqaviləsinə 12-ci düzəlişdir. Sənəd Azərbaycanın bizim əvvəlki təkliflərimizə münasibətini əks etdirir. Hazırda cavab təşəbbüslərini formalaşdırmaq üçün onun təhlilini aparırıq" - Baş nazir qeyd edib. Onun sözlərinə görə, tərəflər sərhəddə avropalı müşahidəçilərin yerləşdirilməsi məsələsində razılığa gələ bilməyib və Bakı hələ ki, İrəvanın kommunikasiyaların açılması təklifinə rəsmi cavab verməyib. ”Biz öz təkliflərimizi təqdim etmişik və Azərbaycandan müsbət cavab alacağımıza ümid edirik. Söhbət iki ölkə arasında dəmir yolu əlaqəsinin bərpasından, o cümlədən Azərbaycanın qərb rayonlarından Ermənistanın suveren ərazisindən keçməklə Naxçıvana yüklərin tranzitindən gedir. Öz növbəsində, Ermənistan Yerasx-Mehri (Arazdəyən-Mehri-red.) marşrutu üzrə dəmir yolu əlaqəsi imkanı əldə edəcək”, - Paşinyan əlavə edib.



Bu barədə fikirlərini “Unikal”la bölüşən politoloq Elxan Şahinoğlu deyib ki, Paşinyan rəsmi Bakının İrəvanın silahların qarşılıqlı nəzarəti və yoxlanılması mexanizmi təklifini də cavabsız qoyduğunu bildirib. Onun sözlərinə görə, Nikol Paşinyanın silahlanmaya nəzarətlə bağlı söylədiyi müzakirə predmeti deyil: “Bu bənd sülh sazişinin mətnində yoxdur. Müharibədə məğlub olan ölkənin qalib ölkəyə “gəl silahlarımıza qarşılıqlı nəzarət edək” təklifinin irəli sürülməsi məntiqsizdir. Tarixdə də belə bir hal olmayıb ki, qalib ölkə məğlub ölkənin tələbini yerinə yetirsin. Bir də ki, Azərbaycanın silahlanması yalnız Ermənistanla əlaqəli deyil, bölgədə müxtəlif çağırışlara hazır olmalıyıq. Paşinyanın “tərəflər sərhəddə avropalı müşahidəçilərin yerləşdirilməsi məsələsində razılığa gələ bilməyib” ifadəsinin ünvanı Bakı deyil, İrəvandır. Paşinyan Avropa İttifaqının və Fransanın istəyi ilə Ermənistanda müşahidəçilər yerləşdirməsəydi, bu məsələ Bakı ilə İrəvan arasında fikir ayrılığına səbəb olmazdı. İki ölkə arasında sülh danışıqları aparılırsa və sülh sazişi imzalanacaqsa gərginlik yaradan müşahidəçilər bölgəni tərk etməlidirlər. Bu rəsmi Bakının haqlı tələbidir. Onların sərhəd boyu hərəkət etmələri, Avropadan gələnlərin daima durbinlə Azərbaycana boylanmaları iki ölkə arasında əlavə gərginlik mənbəyinə çevrilib”.

E.Şahinoğlu deyib ki, kommunikasiyaların açılmasına gəldikdə Paşinyan iki variant təklif edib. “Onun birinci təklifi budur ki, Ermənistan Azərbaycandan Naxçıvana keçidi İrandan keçən yol kimi eyni prinsiplə açmağa hazırdır. Bunu əvvəl də bir neçə dəfə söyləyib. İkinci təklifi isə odur ki, İrəvan qarşılıqlı əsasda yolun işləmə rejimini sadələşdirməyə hazırdır. Bu da yeni təklif deyil. Göründüyü kimi, Paşinyan əvvəlki kimi Zəngəzur dəhlizindən maneəsiz keçidin əleyhinədir”- deyə politoloq fikrini tamamlayıb.

Onu da nəzərə çatdıraq ki, Ermənistan XİN-in sözçüsü Ani Badalyan bildirib ki, Azərbaycandan sülh sazişi layihəsinə cavab alıblar, lakin “digər məsələlərdə - kommunikasiyaların blokdan çıxarılması və silahlara qarşılıqlı nəzarət mexanizmi ilə bağlı təkliflərə cavab yoxdur”.

Bu barədə fikirlərini bildirən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Bakının İrəvana göndərdiyi cavab 17 maddəlik sülh sazişi layihəsinə korrektlərin edilməsindən ibarətdir. Onun sözlərinə görə, belə korrektlər Bakı-İrəvan xəttində uzun müddətdir davam edir: “Tərəflərin son açıqlamaları fonunda 17 maddənin yalnız birində prinsipial razılaşmanın olmadığı görünür: üçüncü ölkələrə məxsus qüvvələrin sərhəddən çıxarılması. İrəvan AB-nin müşahidə missiyasının müddətini daha iki il uzatmaqla bu məsələdə razılaşma perspektivini sıradan çıxardı. Və saziş layihəsinin bu bənd olmadan imzalanması üçün “alternativ güzəştlər” irəli sürür, misal üçün, Minsk Qrupunun buraxılması ilə bağlı. Mümkündür ki, İrəvan layihədə “üçüncü ölkələrə məxsus qüvvələrin sərhəddən çıxarılması” bəndi ilə bağlı yeniliklər, yaxud əlavə təkliflər daxil edib, Bakının cavabı da bu məsələdə öz korrektlərini əlavə etməkdir.Ermənistanın “digər məsələlər” dediyi kommunikasiyanın açılması və silahlara nəzarət mexanizmi 17 maddəlik layihəyə daxil deyil: kommunikasiya ilə bağlı məsələ qarşılıqlı razılaşma ilə layihədən çıxarılıb, silahlara nəzarət mexanizmi isə Ermənistanın Azərbaycan tərəfindən qəbul edilməyən, ümumiyyətlə reaksiya vermədiyi təklifidir”.

Şərhçi onu da qeyd edib ki, İrəvanın diqqəti sazişdən kənar məsələlərə çəkməsi təsadüfi deyil: “Bu, Bakının layihədən kənar tələbləri qarşısında - Ermənistan konstitusiyasının dəyişdirilməsi və s. - kontr-gediş etmək, gündəliyi genişləndirərək, masada mövqelərini qorumaq məqsədi daşıyır. Hər çənd, cavab və kontr-cavab müstəvisində davam edən sülh sazişi layihəsinin 2025-ci ildə də imzalanması perspektivləri zəifləyir”.

***S.Əli***

## İcma Aİ-Ermənistan Parlament Tərəfdaşlıq Komitəsinin qərarını pisləyib

***Qərbi Azərbaycan İcması Avropa İttifaqı - Ermənistan Parlament Tərəfdaşlıq Komitəsinin 25 fevral 2025-ci ildə keçirilmiş iclasında qəbul edilən yekun sənədini qınayır və tamamilə rədd edir.***

”Unikal” xəbər verir ki, bu barədə icmanın bəyanatında qeyd edilib.

Sənəddə bildirilib ki, Avropa Parlamenti və Ermənistan parlamenti tərəfindən qəbul edilmiş bu sənəd irqçilik, insan hüquqlarına hörmətsizlik, Azərbaycanın ərazi bütövlüyünə qəsd xarakteri daşıyır və regionda yeni müharibənin yaradılmasına xidmət edir:

”Azərbaycan ərazilərinin 20 faizini işğal edərək minə yaxın şəhər və kəndi dağıdıb, 20 mindən artıq azərbaycanlını Azərbaycan ərazisində qətlə yetirib, 4000 azərbaycanlını məcburi itkin düşməyə məruz qoyub, milyonlarla mina və partlamamış hərbi sursatla Azərbaycan ərazilərinin 13 faizini çirkləndirən Ermənistan “demokratiya” təcəssümü və “sülh göyərçini” kimi qələmə verilir. Sanki irqçi ideologiya əsasında öz ərazisindən və vaxtilə işğal etdiyi Azərbaycan ərazilərindən bir milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoyan Ermənistan deyil”.

İcmanın bəyanatına əsasən azərbaycanlı qaçqın və məcburi köçkünlərin taleyinə otuz ildən artıqdır ki, biganə yanaşanların indi Azərbaycanın Qarabağ bölgəsindən könüllü köçüb getmiş ermənilərlə bağlı məsələləri qaldırması açıq-aşkar irqi ayrı-seçkiliyin nümunəsidir:

”Ermənistanda kütləvi və sistematik şəkildə dağıdılan Azərbaycan mədəni irsi, azərbaycanlıların pozulmuş mülkiyyət hüquqları və onların qayıdış hüququ məsələsini görməzdən gələn Avropa Parlamentinin insan hüquqları və humanitar hüquq məsələsindən danışmağa mənəvi haqqı yoxdur.

Xocalı soyqırımının ildönümündə həmin soyqırımını törətməkdə şübhəli bilinərək məhkəmə qarşısına çıxarılmış şəxslərin azadlığa buraxılmasına dair çağırış etmək məhkəmə müstəqilliyinə qarşı yönəlməklə, Xocalı qurbanlarının xatirəsinə hörmətsizlikdir. Bu cür çağırışlar faktiki olaraq, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı müharibə cinayətlərinə haqq qazandırır, Ermənistana cəzasızlıq vəd edir və onu bu cür cinayətləri təkrarlamağa cəsarətləndirir”.

Bəyanatda vurğulanıb ki, militarist məqsədlərə xidmət edən “Avropa Sülh Fondu” və Avropa İttifaqının Ermənistandakı missiyasına (EUMA) sənəddə edilən çoxsaylı istinadlar Avropa İttifaqının Ermənistanın hərbiləşdirməsini bundan sonra da davam etdirəcəyinin göstəricisidir.

”ATƏT-in “Minsk Qrupu” adlı qondarma quruma, onun mənfur “Madrid Prinsiplərinə” istinad bu bəyanatın müəlliflərinin əsl niyyətinin bölgədə yenidən münaqişə yaratmaq olmasına şübhə yeri qoymur.

Xüsusilə ciddi diqqət yetirilməli məqam ondan ibarətdir ki, bu bəyanata Ermənistanın hakim partiyasının çoxluq təşkil etdiyi parlamenti də razılıq verib. Bu onu sübut edir ki, Ermənistan hökuməti sülh danışıqlarında səmimi deyil və bu danışıqlardan özünün kütləvi silahlanma proqramını başa çatdırmaq üçün örtük kimi istifadə edir.

Biz beynəlxalq ictimaiyyəti Ermənistanın və Avropa İttifaqının insan hüquqları və sülhə qarşı bu addımlarına qarşı çıxmağa çağırırıq” -deyə, icma bəyanatında bildirib.

# İlham Əliyevin Embalo ilə geniş tərkibdə görüşü oldu



***Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə lanç əsnasında geniş tərkibdə görüşü olub.***

”Unikal” xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

# Əfv Komissiyasının iclası keçirildi

***Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.***

”Unikal” xəbər verir ki, bu gün keçirilən iclasda komissiyaya daxil olan müraciətlər müzakirə olunub. Komissiyanın üzvü Rəşad Məcid APA-ya bildirib ki, iclasda 100-dən artıq müraciətə baxılıb.

Qeyd edək ki, komissiyanın iclaslarının nəzərdə tutulan əfvlə bağlı keçirildiyi bildirilir.

# Delimitasiya komissiyasının növbəti iclasının keçirilmə vaxtı bilindi

***Selimitasiyanın ikinci mərhələsi başlamazdan əvvəl Ermənistan və Azərbaycanın delimitasiya komissiyalarının yeni iclası keçiriləcək.***

”Unikal” xəbər verir ki, bu barədə jurnalistlərə Ermənistanın baş nazirinin müavini Mher Qriqoryan jurnalistlərə bildirib.

“Düşünürəm ki, daha bir görüş olacaq, çünki hələ müzakirə edilməli olan məsələlər var. Görüş işçi qruplar səviyyəsində keçiriləcək. Tərəflər intensiv olacaqları barədə razılığa gəliblər. Görüş martda baş tuta bilər”, - deyə Qriqoryan bildirib.

Tavuşda delimitasiya prosesinin davam etdirilməsi kimin təşəbbüsü ilə bağlı suala Qriqoryan cavab verib ki, bu, “razılıq” əsasında olub.

# DİN-dan yarım milyonluq əməliyyat, saxlanılanlar var

***DİN-in Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinə investisiya şirkəti adı altında fəaliyyət göstərən “First Zenit Capital” səhifəsinin “Shopify” beynəlxalq elektron ticarət portalında dövr etdirmək vədi ilə müxtəlif şəxslərin pul vəsaitlərini ələ keçirdiyi barədə çoxsaylı şikayətlər daxil olub.***

DİN-in mətbuat xidmətindən “Unikal”a verilən məlumata görə, araşdırmalarla həmin şirkətin investisiya layihələri ilə məşğul olmadığı, elektron piramida dələduzluq sistemi əsasında fəaliyyət göstərdiyi və insanları ələ almaq məqsədi ilə yüksək məbləğdə qazanc vəd etdikləri müəyyən edilib.

Bu məqsədlə sosial şəbəkələrdə mütəmadi olaraq “First Zenit Capital” şirkətinin reklamları paylaşılıb şirnikləndirici elanlar yerləşdirilib.

Əməliyyat zamanı həmin şirkətin təsisci-direktoru Kərim Bəşirzadə və onunla birgə bu qanunsuz əməlləri törədən Taleh Əlizadə müəyyən edilərək saxlanılıblar.

Araşdırmalarla onların bu yolla zərərçəkənlərin 500 min manata yaxın pulunu ələ keçirdikləri məlum olub. Saxlanılan şəxslərdən dələduzluq əməlləri zamanı istifadə etdikləri bank kartları və digər elektron sübutlar aşkarlanaraq götürülüb.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. K.Bəşirzadə və T.Əlizadə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib, əməliyyat-texniki tədbirlər davam etdirilir. “First Zenit Capital” şirkətinin qanunsuz fəaliyyətindən zərərçəkən digər vətəndaşlar varsa bu barədə polis orqanlarına müraciət edə bilərlər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5[A]
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

***Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo mətbuata bəyanatlarla çıxış ediblər.***



”Unikal” xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti mətbuata bəyanatla çıxış edib.

Prezident İlham Əliyevin bəyanatı:

- Hörmətli cənab Prezident, əziz qardaşım.

Əziz qonaqlar, xanımlar və cənablar.

Əziz qardaşım, xoş gəlmisiniz. Bir daha Sizə “Xoş gəlmisiniz!” deyirəm. Sizin son səfəriniz yadımdadır, noyabr ayında COP29 konfransında iştirak etmək üçün ölkəmizdə oldunuz. Mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etdim və şadam ki, o, mənim dəvətimi qəbul etdi. Beləliklə, bu gün cənab Prezident artıq ikinci dəfədir ki, ölkəmizdədir. Bu, bizim sıx qardaşlıq münasibətlərimizin aydın təzahürüdür. Bu onu göstərir ki, biz qardaş və dost kimi birgə işləyirik və bunu davam etdirəcəyik.

Bu səfər tarixi səfərdir. İlk dəfədir ki, Qvineya-Bisaunun Prezidenti rəsmi səfərə gəlib. Biz artıq ikitərəfli gündəliyə aid olan mühüm məsələləri müzakirə etdik və belə razılığa gəldik ki, tərəfdaşlığımızı bütün sahələrdə gücləndirək. Siyasi münasibətlər çox yaxşıdır. Bir daha qeyd etmək istəyirəm, bunun ən yaxşı təzahürü ondan ibarətdir ki, cənab Prezident ölkəmizə ikinci dəfədir səfər edir. Beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləyirik, bunu belə də davam etdirəcəyik. BMT və digər beynəlxalq təsisatlarda, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında bir-birimizi dəstəkləyirik.

Biz iqtisadi sahədə belə bir razılığa gəldik ki, konkret layihələr, investisiya imkanları müəyyən edilsin. Əminəm ki, beləliklə, biz ümumi məxrəcə gəlib çıxacağıq. Çünki biz artıq bir çox ölkələrə sərmayələr yatırırıq. Əlbəttə, biz məmnun olardıq ki, konkret layihələr fürsətlərini nəzərdən keçirək. Biz, həmçinin hesab edirik ki, bu, müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlıq etmək üçün fürsət yaradır. Cənab Prezident Azərbaycanın hərbi hissələrinin birində olacaq və ona, o cümlədən müdafiə sənayesi haqqında təqdimat ediləcək. Bu ola bilsin ki, bizim dostlarımız üçün maraqlı olsun.

Bir sözlə, gündəlik genişdir, ən vacibi isə odur ki, bizim dost, qardaş münasibətlərimiz var, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləyirik və biz konkret layihələri icra etməliyik. Çünki siyasi münasibətlər bunun üçün bir platforma kimi xidmət edir.

Ümid edirəm ki, əziz qardaşım, Siz bir daha ölkəmizə gələcəksiniz. Həmçinin cənab Prezident məni öz ölkəsinə səfərə dəvət etdi. Məmnunluqla bunu edəcəyəm və biz öz məhsuldar dialoqumuzu davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz.

Sonra Qvineya-Bisau Respublikasının Prezidenti mətbuata bəyanatla çıxış edib.

Prezident Umaru Sisoku Embalonun bəyanatı:

- Çox sağ olun, əziz qardaşım Prezident Əliyev. Bu gün burada - Bakıda olmaqdan və münasibətlərimizə yenidən nəzər salmaqdan məmnunam. Çünki xatirimdədir ki, hələ Sovet İttifaqı vaxtlarında bir çox texniki heyət üzvlərimiz burada təhsil almışdır. Sabah ilk heyətimiz buraya polis və hərbi məktəblərdə təlim üçün gələcək. Bu, bizim üçün çox vacibdir. Bu gün biz bu əlaqələri yeniləmək üçün buradayıq.

Əməkdaşlıq üçün sahə çoxdur - səhiyyə, təhsil, hərbi və təhlükəsizlik sahələri var. Əminik ki, bu səfər Sizi görməklə bərabər, ölkələrimiz üçün də faydalı olacaq.

Cənab Prezident, Qvineya-Bisau və Azərbaycan iki dost ölkədir, bizim amallarımız ümumidir. Bir sıra vacib məsələlər üzrə əminlik var. BMT və İƏT çərçivəsində əməkdaşlıq edirik. Biz də, siz də həmin iki təşkilatın üzvüyük.

Təkbətək görüşdə biz beynəlxalq münasibətlərə aid çox məsələləri müzakirə etdik və bir-birimizi dəstəkləmək bağlı razılığa gəldik. Düşünürəm ki, bu, daha vacibdir. Birgə işləmək üçün hədəfləri müəyyən edə bilərik. Əl-ələ verib ölkələrimizi daha yaxın etmək üçün işləyə bilərik.

# Bakıda AQEM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası keçirilib

***Bakıda Azərbaycan Respublikasının sədrliyi ilə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası keçirilib.***



XİN-dən verilən məlumata görə, sözügedən iclas 26 fevral tarixində Bakıda keçirilən xüsusi işçi qrupunun görüşündən sonra baş tutub. Yüksək Vəzifəli Şəxslər Komitəsinin iclası zamanı Azərbaycanın AQEM sədrliyi AQEM-ə üzv ölkələr tərəfindən iddialı, zəngin və təşəbbüskar olaraq qiymətləndirilən 2025-2026-cı illər üzrə prioritet və təşəbbüslərini təqdim edib.

Komitə həmçinin Azərbaycan sədrliyinin 2025-ci ildə Bakıda AQEM beyin mərkəzlərinin illik forumunun keçirilməsi ilə bağlı təşəbbüsünü ehtiva edən AQEM beyin mərkəzlər forumunun illik hesabatını nəzərdən keçirib və təsdiqləyib.

Müzakirələr, həmçinin Azərbaycan sədrliyinin üç əsas prioritetindən biri olan AQEM-in institusional bazasının möhkəmləndirilməsinə yönəlib. AQEM-ə üzv dövlətlərin nümayəndə heyətləri AQEM-in maliyyə sammitinin və AQEM Qadın Şurasının institutlaşma məsələlərini nəzərdən keçirib, həmçinin etimad quruculuğu üzrə müvafiq sahələrdə işləri təhlil ediblər.

08_27 IYUl-QARA.qxd 2/27/2025 10:47 PM Page 6



# Milli Məclisdən Avropa Parlamentinə sərt reaksiya: “Bu bəyanat qərəzli, birtərəfli və qarayaxmadır"

***Azərbaycan Respublikasının Milli Məclisi Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin 25 fevral 2025-ci il tarixli bəyanatını şiddətlə qınayır, bu sənədi Avropa Parlamenti ilə Ermənistanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyasının növbəti nümunəsi kimi qiymətləndirir.***

”Unikal” xəbər verir ki, bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Bildirilib ki, Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində qəbul edilmiş bu bəyanat, Azərbaycan əleyhinə səsləndirilmiş absurd və tamamilə əsassız ittihamlar həm Ermənistanın, həm də Avropa Parlamentinin əsl mahiyyətini bir daha ortaya qoyur.

Nəticə etibarilə, bu bəyanat Ermənistan tərəfinin Azərbaycanla danışıqlar prosesində qeyri-səmimiliyini yenidən nümayiş etdirmiş oldu. Ermənistan parlamentinin, o cümlədən Komitənin işində iştirak edən hakim partiyanın Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, nə Avropa İttifaqı, nə də onun parlament strukturu heç bir zaman Ermənistana qarşı sanksiyaların tətbiqinə çağırış etməyib və bununla da, faktiki olaraq, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etməsini təşviq edib. Bu isə Azərbaycana qarşı sanksiyaların tətbiqinə səsləyən avropalı parlamentarilərdə dərin kök salmış azərbaycanofobiya meyllərini ifşa edir.

Ermənistanın onilliklər boyu Azərbaycan ərazilərini minalarla çirkləndirməsinə, ölkəmizə qarşı bu irqçi siyasətin nəticələrinin aradan qaldırılması istiqamətində əməkdaşlıqdan yayınmasına münasibətdə də Avropa Parlamentindən hər hansı bir mövqe bildirilməməsi təəssüf doğuran digər bir məqamdır. Belə görünür, avropalı parlamentarilər günahsız insanların həyatını itirməyə davam etməsini, bu minaların Azərbaycanın yalnız öz imkanları hesabına apardığı yenidənqurma və bərpa işlərinə ciddi əngəllər törətməsini dərk etməkdə acizdirlər.

Avropa Parlamenti keçmiş münaqişə dövründə itkin düşmüş 4000 azərbaycanlının taleyinə də eyni dərəcədə biganəlik nümayiş etdirir. Halbuki, işğaldan azad edilmiş ərazilərdə tapılan kütləvi məzarlıqlar Ermənistanın azərbaycanlılara qarşı törətdiyi qeyri-insani hərəkətlərin miqyasını və vəhşiliyini bir daha təsdiq edir.

Avropalı parlamentarilər insan haqları, o cümlədən geri qayıtmaq hüququ haqqında danışarkən, nədənsə 1980-ci illərin sonlarında indiki Ermənistandan zorla qovulmuş təxminən 250.000 azərbaycanlı qaçqının geri qayıtmaq hüququnu rahatlıqla gözardı edirlər. Sağlam məntiq Avropa Parlamentinin bu fundamental insan haqlarına məsələsinə ədalətli yanaşma nümayiş etdirməsini, Ermənistanı bu insanların öz ata-baba torpaqlarına qayıtması üçün lazımi şərait yaratmağa çağırmasını tələb edir. Təəssüf ki, həm Ermənistan, həm də Avropa Parlamenti iki ölkə arasında etimadın qurulmasına müsbət töhfə verəcək bu məsələni görməzlikdən gəlməyə israr edirlər. Bu cür davranış isə Avropa İttifaqının qoruduğunu iddia etdiyi liberal dəyərlərə tamamilə ziddir.

Azərbaycanın Ermənistanın Konstitusiyası və digər hüquqi sənədləri ilə bağlı narahatlığı qanuni və əsaslıdır. Reallıq budur ki, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları mövcuddur. Bu vəziyyət isə həmin ölkənin ali sənədinə zidd olan istənilən beynəlxalq sazişin qanuniliyini şübhə altına alır. Belə olan halda, Ermənistanın Konstitusiyasına düzəlişlər edilməsinin zəruriliyinə dair Azərbaycanın mövqeyi heç bir halda maksimalist mövqe deyil, eyni zamanda Ermənistanın özü üçün də sadəcə daxili məsələ deyil. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıması təmin olunmalıdır.

Aİ-nin Ermənistandakı Missiyası (EUMA) ilə bağlı qeyd etmək lazımdır ki, bu missiya Azərbaycan tərəfinə verilən vədlərə zidd olaraq yaradılıb və Ermənistanla Azərbaycan arasında regional sabitliyin və etimadın gücləndirilməsinə dair öncədən bəyan edilmiş məqsədə xidmət etmir. Müşahidlər göstərir ki, EUMA faktiki olaraq, düşmənçilik yaymaq və əsassız azərbaycanofobiyanı qızışdırmaq üçün təbliğat vasitəsi kimi geniş şəkildə istifadə edilir. Ötən dövr ərzində bu missiya Azərbaycana qarşı qərəzini açıq şəkildə nümayiş etdirib, saxta və yalan xəbərlərin yayılması aləti kimi tətbiq olunub. Təəssüf ki, EUMA-nın təxribatçı fəaliyyəti Ermənistanı cəsarətləndirməyə davam edir və onu Azərbaycanla münasibətləri birdəfəlik normallaşdırmaq səylərindən çəkindirir. Belə fəaliyyət sərhəd boyu gərginliyi süni şəkildə artırmaq potensialına malikdir.

Aİ-nın öz qonşusunun ərazisini 30 il ərzində işğal altında saxlamış Ermənistana Avropa Sülh Mexanizmi və digər proqramlar vasitəsilə hərbi dəstək vermək qərarı isə dərin narahatlıq doğurur. Bunun regionda sülh və sabitliyə töhfə vermək səyləri ilə heç bir əlaqəsi yoxdur. Təcavüzkar ölkəyə göstərilən bu yardım regionda sabitliyi pozmağa və potensial olaraq silahlanma yarışını alovlandırmağa yönəlmiş addımdır.

Qeyd olunanları nəzərə alaraq, Aİ-nın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesindəki roluna dair bəyanatda səsləndirilən iddiaların da heç bir əsası yoxdur. Aİ öz qurumlarının və bəzi üzv dövlətlərin bir sıra hərəkətləri nəticəsində bu prosesdəki rolunu itirib. Avropa Parlamenti bu məsələdə xüsusi fəallıq göstərib və beləliklə, bu məsələdə təəssüf hiss keçirməyə heç bir mənəvi haqqı yoxdur.

Bütün bunlar fonunda, Azərbaycan Respublikasının Milli Məclisi Avropa İttifaqı-Ermənistan Parlament Tərəfdaşlığı Komitəsinin tarixi faktları təhrif edən və Azərbaycanı ədalətsiz şəkildə ittiham edən qərəzli və birtərəfli bəyanatını qəti şəkildə rədd edir. Belə addımlar yalnız fikir ayrılıqlarını dərinləşdirməyə xidmət edir, sülh və barışığı təmin etmək səylərini sarsıdır. Əgər Avropa Parlamenti həqiqətən də Cənubi Qafqazda sabitliyi təşviq etməyə çalışırsa, bu qurum ötən dövrlərdəki haqsızlıqları etiraf edən, Ermənistanın revanşist siyasətini və militarizasiya cəhdlərini təşviq etməyən tarazlı və ədalətli yanaşmanı rəhbər tutmalıdır.

nümayəndələrinin Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınması, habelə dövlətlərarası münasibətlərin normallaşdırılması ilə bağlı çıxışlarına birbaşa zidd olan birgə bəyanatı dəstəkləməsi bunun bariz göstəricisidir.

Digər tərəfdən, bu bəyanat Avropa Parlamentində Azərbaycana münasibətdə dərin kök salmış nifrət siyasətinin növbəti təzahürüdür.




Bəyanatda Ermənistanı israrla qurban kimi qələmə verməyə çalışanlara xatırlatmaq istərdik ki, Ermənistan onilliklər boyu faşist ideologiyasını bəsləyən bir ölkədir. Bu ideologiya da onun Azərbaycana qarşı 30 illik təcavüzünün əsasını təşkil edir. İşğal dövründə Ermənistan ağır cinayətlər, o cümlədən hərbi cinayətlər, insanlığa qarşı cinayətlər və soyqırım aktları törədib. Ermənistan etnik təmizləmə həyata keçirib və bir milyona yaxın azərbaycanlını öz doğma yurdlarından, o cümlədən Zəngəzur, Dərələyəz, Göyçə və digər ərazilərdən qaçqın və məcburi köçkün vəziyyətinə salıb. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini yerlə-yeksan edərək talan edib, dövlət və şəxsi mülkiyyətə milyardlarla ABŞ dolları dəyərində maddi ziyan vurub, işğal olunmuş ərazilərdə və Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsi məhv edib və özününküləşdirib.

Ermənistan sonrakı rəhbərliyi dövründə hərbi cinayətlərin araşdırılması üçün heç bir addım atmayıb. Onilliklər ərzində günahsız azərbaycanlılara qarşı törədilmiş ağır cinayətlərə görə heç bir erməni məsuliyyətə cəlb olunmayıb. Bu vəziyyət səhvən demokratik və insan haqlarının müdafiəçisi kimi təqdim edilən Ermənistanın indiki hökuməti dövründə də davam etmədədir.

Təəssüflər olsun ki, Azərbaycan ərazilərinin işğalı ilə bağlı çoxsaylı beynəlxalq sənədlərə, o cümlədən BMT



## PA rəsmisi: “Düzgün koordinasiyanın təşkili məhkəmə xidmətlərinin əlçatanlığını təmin edib”

***Düzgün koordinasiyanın təşkili ötən il mübahisələrin həlli üzrə məhkəmə xidmətlərinin əlçatanlığını təmin edib.***

Bunu Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev “Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qrupunun iclasında çıxışı zamanı deyib.

O bildirib ki, bu sahədə yol xəritəsinin hazırlanaraq sistemli fəaliyyətin təşkil edilməsi, biznes assosiasiyalarının, sahibkarların inkluziv şəkildə iştirakının təmin edilməsi işin səmərəli olmasına şərait yaradıb:

”İşçi qrupunun hesabatı üzrə mübahisələrin həlli indekatoru üç əsas sütun əsasında qiymətləndirmənin aparılmasını nəzərdə tutur. Birincisi mübahisələrin həlli istiqamətində qanunvericilik bazasının qiymətləndirilməsidir. Bu daha çox de-yure aspektdən qiymətləndirməni nəzərdə tutur.

İkinci istiqamət mübahisələrin həlli üzrə dövlət xidmətlərinin mövcudluğu və əlçatanlığıdır. Bu da daha çox de-fakto, yəni müvafiq xidmətlərin qanunvericiliklə nə dərəcədə tamamladığını müəyyən edən istiqaməti nəzərdə tutur.

Üçüncü sütun isə birinci və ikinci sütunun praktikada tətbiqinin səmərəliliyinin ölçülməsi ilə bağlıdır. Əgər işçi qrupun qarşısında qiymətləndirmə aparılsa, ölkə göstəricilərinin nədən ibarət olduğunu müəyyən etmək üçün diaqnostikanın həyata keçirməsini xahiş edirik. Ən önəmli məsələ öncədən görüləcək işləri müəyyən etməkdir”.

## Martın 2-dək qar yağacaq - xəbərdarlıq

***Sabah gündüzdən martın 2-dək Bakıda və Abşeron yarımadasında arabir sulu qar, qar yağacağı gözlənilir.***

”Unikal” xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidməti xəbərdarlıq yayıb.

Qeyd olunub ki, bəzi yerlərdə yağıntıların intensivləşəcəyi ehtimal olunur. Havanın minimal temperaturu gecə 1-5 dərəcə şaxta, gündüz 1 dərəcə şaxtadan 1 dərəcəyədək isti olacaq.

Fevralın 28-də bəzi şərq rayonlarında, martın 1-dən 2-dək isə əksər rayonlarda arabir sulu qar, qar yağacağı gözlənilir. Bəzi yerlərdə yağıntıların intensivləşəcəyi ehtimal olunur. Havanın minimal temperaturu Aran rayonlarında 1-6, dağlıq rayonlarda 8-13, yüksək dağlıq ərazilərdə isə 17-22 dərəcə şaxta olacaq.

Ölkə ərazisində gözlənilən şaxtalı və qarlı hava şəraiti ilə əlaqədar bəzi yollar buz bağlayacaq.



# 8 Martla bağlı direktorlara xəbərdarlıq

***Paytaxtın ümumi təhsil müəssisələrinin rəhbərləri ilə görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdir müavini Xəyalə Əhmədzadə, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli, Keyfiyyətə nəzarət və monitorinq sektorunun müdiri Fidan Nəcəfova və məktəb direktorları iştirak ediblər.

Görüşdə vətəndaş məmnuniyyəti, birinci sinfə qəbul, qurumlararası əməkdaşlıq, rəqəmsal məktəb platforması üzrə fəaliyyət, PİSA 2025 tədqiqatının təşkili və digər mövzularda müzakirələr aparılıb.

BŞTİ-nin müdir müavini Xəyalə Əhmədzadə qarşıdakı dövr üçün nəzərdə tutulan bir sıra məsələlərə nəzarətin artırılmasının, o cümlədən qurumlararası və daxili kommunikasiyanın gücləndirilməsinin vacibliyinə toxunub. Müdir müavini tədrisin təşkilində məktəb direktorlarının üzərinə düşən məsuliyyətin düzgün dəyərləndirilməsinin əhəmiyyətini vurğulayıb, müvafiq tövsiyələr verib.

MÜTDA-nın Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli hər bir dövlət qurumunun fəaliyyətində olduğu kimi, təhsil sahəsində də vətəndaş müraciətlərinə baxılması və vətəndaş qəbulu ilə bağlı həyata keçirilən sistemli tədbirlərin insanları narahat edən məsələlərin aradan qaldırılmasına və vətəndaş məmnunluğunun təmin olunmasına xidmət etdiyini bildirib, bu istiqamətdə əldə olunan müsbət nəticələrdən danışıb.

Agentliyin sektor müdiri Fidan Nəcəfova ümumi təhsil müəssisələrində proseslərin elektronlaşdırılması çərçivəsində fəaliyyətə başlayan "Rəqəmsal məktəb" platformasının əhəmiyyəti barədə danışıb. Sektor müdiri PİSA 2025 beynəlxalq şagird qiymətləndirmə tədqiqatında uğurlu nəticələrin əldə olunmasında məktəb, müəllim və şagirdlərin üzərinə düşən vəzifələrdən söz açıb, IV-VI siniflər üzrə monitorinqlərin təşkili ilə bağlı bəzi məqamları diqqətə çatdırıb.

Görüşdə şagird yerdəyişməsi, birinci sinfə qəbul, məktəb-icma əlaqələrinin tədrisin keyfiyyətinin artırılmasına təsiri, valideyn təşəbbüslərinin tənzimlənməsi, xüsusilə 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində təhsil müəssisələrinə göndərilən təlimata əməl olunmasının zəruriliyi ilə bağlı fikirlər səsləndirilib, müvafiq tapşırıqlar verilib.

Daha sonra məktəb direktorları ilə bir sıra aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb, onları maraqlandıran suallara cavab verilib, müvafiq təklif və tövsiyələr səsləndirilib.

# Axtarışda olan şəxs Türkiyəyə qaçmaq istədi

***Fevral ayının 26-da saat 23:04-də Sərhəd Nəzarəti Komandanlığının "Sədərək" dövlət sərhədindən buraxılış məntəqəsində dövlət sərhədini qanunsuz keçməyə cəhd göstərən şəxs saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsinin birgə məlumatında deyilir. Belə ki, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsinin əməkdaşları tərəfindən Azərbaycandan Türkiyə Respublikası istiqamətinə hərəkətdə olan 1982-ci il təvəllüdlü İsmayılov Müseyib Ramiz oğlunun idarə etdiyi "Mercedes" markalı minik avtomobilinə baxış zamanı əvvəlcədən hazırlanmış saxlanc yerində gizlənən Azərbaycan Respublikası vətəndaşı - 1988-ci il təvəllüdlü Gözəlov Nicat Ehtiram oğlu aşkarlanıb.

Araşdırma zamanı saxlanılan şəxsin hüquq-mühafizə orqanları tərəfindən axtarışda olduğu müəyyən edilib.

Faktla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# "Spirtlərin hazırlanması prosesinə və satışına nəzarət olunmalıdır"

## Azər Maqsudov: "Statistikaya görə, metil spirtindən zəhərlənmələrin 80-85%-i ölümlə nəticələnir"

***Kliniki Tibbi Mərkəzin baş toksikoloqu, tibb elmləri doktoru Azər Maqsudov "Unikal"a müsahibə verib. O, son günlər 20-yə yaxın şəxsin spirtdən zəhərlənərək ölməsinin səbəblərindən, qış fəslində dəm qazından boğulmaların artmasından və bu aylarda insanların əsasən hansı zəhərlənmə ilə müraciət etməsindən danışıb.***

***-Azər müəllim, son günlər paytaxtda 20-yə yaxın şəxs texniki spirtdən zəhərlənərək ölüb. Əvvəlki illərdə bu hallara o qədər də rast gəlinmirdi. Həmin şəxslərin həyatını itirməsinin səbəbi nədir?***



-Spirtin bir neçə növü var. Daxilə qəbul olunan etil spirtidir. Bu spirtin kimyəvi düsturu ayrıdır, həm də su ilə qarışdıranda spirtli içki əmələ gəlir. Amma tərkibində texniki spirt adlanan, əsasən toksiki təsirə malik metil spirtidir. Bunun əmələ gəlmə prosesi çox ucuzdur. Ona görə satış qiyməti aşağıdır. Amma çox güclü toksiki təsirə malikdir. Bir sözlə zəhərdir. Metil spirti yüksək dərəcədə zəhərli maddədir və insan orqanizmi üçün ciddi təhlükə yaradır. Spirtdən zəhərlənmə hallarının böyük əksəriyyəti məhz metil spirti ilə bağlıdır. Bu maddənin qəbulu bir neçə saat ərzində ağır fəsadlara səbəb ola bilər. Zəhərlənmə simptomları arasında ürəkbulanma, baş gicəllənməsi, ikili görmə və yuxululuq müşahidə olunur. Daha ağır hallarda isə zərərçəkmiş koma vəziyyətinə düşə bilər. Statistikaya görə, metil spirtindən zəhərlənmələrin 80-85%-i ölümlə nəticələnir. Təhlükəli doza 30-200 ml arasında dəyişir və bu miqdarda metanol qəbul edildikdə həyati təhlükə yaranır. Bütün bu məsələlər ondan irəli gəlir. Apteklərdə satılan etil spirtində 95 faiz yazılır. Onu daxilə qəbul edəndə tək-tək fəsadlar verə bilər. Amma gigiyenik vasitə kimi texniki spirt təhlükəlidir və ölüm verə bilər. Texniki spirtin əsas tərkibi metil spirtidir. Bunun üzərində də qeyd edilir ki, daxilə qəbul etmək qadağandır.

***-Bundan əvvəl də tüfeyli həyat tərzi sürənlər spirtə su qataraq qəbul edirdilər. Amma ölüm halları bu qədər çox olmurdu...***

-Qeyd etdiyiniz şəxslər spirtli içki içirdilər. Onlardan alkoqol sərxoşluğu ilə xəstəxanaya gətirilənlər də olurdu. Səhərə kimi qalırdılar, ağır hallar olanda yardımlar olunurdu. Ondan sonra çıxıb gedirdilər. Amma bu il olan faciədir. Bundan əvvəl 2020-ci ildə viskidən zəhərlənmə ilə bağlı 24 ölüm halı olmuşdu. Səhv etmirəmsə, həmin içkinin daxilində metil spirti aşkarlanmışdı.

***-Ümumiyyətlə, spirtli içkidən zəhərlənmə ilə bağlı müraciətlərin sayı çox olur?***

-Tək-tək olsa da, müraciət edənlər olur. Amma belə faciəvi olmur. Əsasən spirtli içki ilə bağlı gətirirlər. Axşam bir-iki saat nəzarətdə qalırlar və sonra evə gedirlər. Orta-ağır olanda səhərə qədər saxlanılır, bundan sonra evə buraxılırlar.

***-Ölüm hallarının çox baş verməsi səbəbindən spirtin hazırlanması və satışı məsələsinə diqqət artırılmalıdırmı?***

-Ümumiyyətlə, spirtlərin hazırlanması prosesinə və satışına nəzarət olunmalıdır. Ona görə ki, apteklərdə satışı sərbəstdir.

***-Qış fəslində dəm qazından boğulma hallarında da artım müşahidə olunur. Bunun əsas səbəbləri nə ilə bağlıdır?***

-Dəm qazından zəhərlənmə hər zaman olur. Evlərdə qazla işləyən cihazların şəraitinə nəzarət olunmalıdır. Hamam otağında nəfəslik açıq olmalıdır. Digər tərəfdən də diqqət və nəzarət edilməlidir.Bir çox hallarda köhnə evlərdə və ya həyət evlərində bu cür hadisələr baş verir. Həmin otaq qazla işləyən cihaza uyğun olmur. Sanitar rejim uyğun olmayanda bu cür hadisələr baş verir. Dəm qazından zəhərlənmə ilə bağlı müraciətlərin sayı stabildir. Müraciətlər çox olsa da, ölüm hadisəsi çox azdır. Amma müxtəlif rayonlardan həftədə bir neçə dəfə məlumat gəlir ki, dəm qazından ölüm hadisəsi olub.

***-Son vaxtlar qida zəhərlənməsi ilə bağlı müraciətlərin dinamikası necə dəyişir?***

-Qida zəhərlənməsi əsasən turşu ilə bağlı olur. Bu da botulizmdir. Botulizm ağır qida toksiki infeksiyası qrupuna aid olan xəstəlikdir. Bu da əsasən qışda olur. Konservləşdirilmiş qida məhsullarından baş verir. Amma bu ilin yanvar ayında 6-7, fevralda isə 5-6 nəfər müraciət edib. Bunların arasında da ölüm hadisəsi qeydə alınmayıb. Bu əsasən pomidor turşusundan olur. Onun hazırlanmasında təmizlik məsələsi önəmlidir. Marketlərdə satılan həmin qida məhsulu texnoloji prosesdən keçir və hamısı uyğunlaşdırılır. Praktiki olaraq marketdən alınan turşudan zəhərlənməyə rast gəlinmir. Amma ev şəraitində bağlanan turşularda belə hallar olur. Orada da bakteriya oksigen olmayan şəraitdə inkişaf edir və onun nəticəsində kütləvi zəhərlənmə olur.

***Anar Kəlbiyev***

# Əbülfəs Qarayevlə bağlı daha bir yeyinti şübhəsi

## 12 il əvvəl film çəkilişinə ayrılan 1 milyon manat hara yoxa çıxıb? - Sabiq nazir susur...

***Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayevin ssenarisi əsasında rejissor Tofiq Tağızadənin quruluş verdiyi "Dədə Qorqud" filminin çəkilməsindən 50 il ötür. Yarım əsrlik yaşı olan film Azərbaycanda çəkilən ilk ikiseriyalı bədii filmdir. Bu film türk xalqlarının dastanının cəmi iki boyunu əhatə edir.***

"Dədə Qorqud" serialı haqqında qərar 12 il öncə verilib. İllər keçdikcə xalqın taleyini, tarixi prosesləri, adət və ənənələri əhatə edən "Kitabi-Dədə Qorqud" dastanı haqqında daha geniş, çoxhissəli tarixi bədii serialın çəkilməsi qərara alınıb.

2013-cü il dekabrın 28-də dövlət başçısı "Dədə Qorqud" dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında Sərəncam imzalayıb. Ədəbi ssenarinin hazırlanması və təşkilati məsələlərin həyata keçirilməsi məqsədilə 2013-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan ilkin olaraq Mədəniyyət və Turizm Nazirliyinə 1 milyon manat da ayrılıb.



Yazıçı Anar isə yerli mətbuata müsahibələrində "Dədə Qorqud" parkının açılışındakı çıxışı zamanı belə bir təklif verdiyini deyib. O, 12 boydan ibarət olan dastanın hər boyuna bir seriya çəkilməsini təklif edib. Yazıçı illər əvvəl serialın ssenarisini yazıb təqdim etdiyini də bildirib. Lakin sərəncamın imzalanmasından 12 il keçsə də, ortalıqda heç bir serial yoxdur.

Bəs 2013-cü ildə çəkilməsi haqqında Sərəncam verilən "Dədə-Qorqud" serialının ərsəyə gəlməsinə nə mane olur? Ssenariyə nə qədər vəsait xərclənib? Hazırda serialın çəkilməsi ilə bağlı durum nə yerdədir? Qurumdan Bizim.Media-nın sorğusuna cavab olaraq, məsələ ilə bağlı araşdırma aparılacağı bildirilib.

Sonradan nazirliyin yaydığı açıqlamada isə qeyd olunub ki, Xalq yazıçısı Anar tərəfindən təqdim edilmiş ssenarinin qiymətləndirilməsi və maliyyə qaynaqlarının tapılması ilə bağlı müzakirələr gedir. "Bu proseslər tamamlandıqdan sonra serialın çəkilişi ilə bağlı növbəti mərhələlər müəyyənləşdiriləcək və yekun qərar ictimaiyyətə açıqlanacaq", - açıqlamada bildirilib.

Bu açıqlamadan xeyli ciddi suallar ortaya çıxır. Əvvəla, ssenarinin qiymətləndirilmə prosesinin illərdir davam etməsi hansı məntiqə sığır? Bir ssenarini bu qədər uzun müddətdə dəyərləndirib başa çatdıra bilməmək nə qədər ağlabatandır?

İkincisi, hələ 2013-cü il üçün dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan sözügedən filmin çəkilişi üçün ilkin olaraq Mədəniyyət və Turizm Nazirliyinə 1 milyon manat ayrıldığı halda, bu nazirlik niyə maliyyə qaynaqlarının müzakirəsi ilə məşğuldur? Belə çıxır ki, 12 il öncə ayrılan 1 milyon manat artıq ortada yoxdur? Elə isə bu, həmin vaxt mədəniyyət naziri postunu tutmuş, sözügedən postu da 2020-ci ildə məhz rüşvət və korrupsiya hallarına görə itirmiş Əbülfəs Qarayevin vəzifədə ikən daha bir yeyintiyə yol verdiyi mənasına gəlmirmi?!

Yada salaq ki, Mədəniyyət Nazirliyində 2020-ci ilin mayında Dövlət Təhlükəsizlik Xidmətinin keçirdiyi, nəticədə yüksək vəzifəlilərin saxlanıldığı, nazirin özünün isə qısa müddət sonra vəzifəsindən uzaqlaşdırıldığı xüsusi əməliyyat Qarayevin rəhbərlik etdiyi qurumda rüşvət və korrupsiyanın at oynatdığını bütün çılpaqlığı ilə ortaya çıxarmışdı. Adında "mədəniyyət" sözü olan bir nazirliyi Əbülfəs müəllim və ətrafının maddiyyat hərisliyinə qurban verməsi cəmiyyətdə hiddətlə qarşılanmışdı. Məsələn, Milli Məclisin Mədəniyyət Komitəsinin ovaxtkı sədr müavini (indiki sədri) Fazil Mustafa demişdi ki, keçmiş mədəniyyət naziri "Azərbaycan mədəniyyətini çökdürməklə yadda qalıb". Qarayevin fəaliyyəti barədə danışarkən deputat onu "ən uğursuz nazirlərdən biri" adlandırmışdı. Sitat: "Əbülfəs Qarayev Azərbaycan kinosunu sıradan çıxardı, Azərbaycan kitabxanalarını məhv etdi, tarixi abidələrini xeyli ziyana saldı. Hesab edirəm ki, öz mənfəəti üçün çalışan adamlardan biri idi. Bu gün onun vəzifədən getməsi əslində bir ümid yaradır ki, Azərbaycan mədəniyyətində yaxşı mənada dəyişikliklər etmək mümkün olacaq".

Bütün bu yazılanların, deyilənlərin fonunda Əbülfəs müəllimin "Dədə Qorqud" serialına ayrılan 1 milyon manatı da hansısa formada havaya sovurduğu aydınlaşsa, yəqin ki, kimsə buna təəccüblənməyəcək.

Yeri gəlmişkən, sabiq nazirin haqqında danışdığımız 1 milyon manatlıq müəmma ilə bağlı susması isə maraq doğurur. Görünür, Əbülfəs müəllim susmağın cəmiyyətdə razılıq əlaməti sayılmasından ya xəbərsizdir, ya da bunu unudub...

***Sənan Mirzə***



# Leyla Əliyeva Bəhreynin neft və ətraf mühit naziri ilə görüşüb

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Bəhreyn Krallığına səfəri çərçivəsində bu ölkənin neft və ətraf mühit naziri Mohammed bin Mubarak Bin Dinah ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq və birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Azərbaycanın 2024-cü ilin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi nüfuzlu beynəlxalq tədbirə uğurla ev sahibliyi etdiyi xüsusi vurğulanıb. Bəhreynli nazir COP29 çərçivəsində Azərbaycana səfərini xatırladaraq, ölkəsinin ətraf mühitin mühafizəsi, ekoloji və iqlim vəziyyətinin inkişafına töhfə verməyə hər zaman hazır olduğunu qeyd edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva müasir dövrdə ətraf mühitin qorunmasına yönəlik birgə təşəbbüslərin planetimizin və insanların gələcəyi üçün önəmli olduğunu bildirib. Danışıqlar zamanı su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkisinin qarşısının alınması sahəsində tədbirlər, çirkab suların təmizlənməsi və irriqasiyaya yönləndirilməsi istiqamətində də fikir mübadiləsi aparılıb.

# Politoloq Zaur Məmmədova yeni vəzifə verildi

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yeni təyinat olub.***

"Unikal" xəbər verir ki, politoloq Zaur Məmmədov DİA-nın İctimaiyyətlə əlaqələr üzrə müşavir təyin edilib. O bundan əvvəl sosial iş, təlim - tərbiyə, təşkilati məsələlər üzrə müşavir idi.

# Bələdiyyələr torpağa qiymət qoya bilməyəcəklər

***Bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin satışı, eləcə də hərraca və ya müsabiqəyə çıxarılan bələdiyyə mülkiyyətində olan torpaqların ilkin qiymətinin (qiymətinin) müəyyən olunması sahəsində səlahiyyətin tənzimlənməsi qaydası dəyişir.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçiriln iclasında müzakirəyə çıxarılan Torpaq Məcəlləsinə təklif olunan dəyişiklikdə öz əksini tapıb. Layihəyə əsasən, bələdiyyə mülkiyyətində olan torpaq sahələri fərdi yaşayış evinin tikintisi üçün bilavasitə satıldıqda qiymətlər, habelə hərraca və ya müsabiqəyə çıxarılan bələdiyyə mülkiyyətində olan torpaqların ilkin qiyməti (qiyməti) normativ qiymətdən az olmamaq şərtilə bazar məzənnələri nəzərə alınmaqla, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir. Fərdi yaşayış evinin tikintisi üçün ayrılan torpağın hər 0,01 hektarının qiyməti şəhərlərin və rayon mərkəzlərinin müvafiq zonasında və ya müvafiq kadastr qiymət rayonuna daxil olan inzibati rayonda son torpaq hərracı və ya müsabiqəsi vasitəsilə satılan torpağın hər 0,01 hektarına görə ödənilən qiymətdən az ola bilməz.

Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin (ipoteka predmeti olan torpaq sahələri istisna olmaqla) hərrac və müsabiqə vasitəsilə satışında ilkin qiymət (müsabiqədə isə qiymət) bazar məzənnəsini nəzərə almaqla, mülkiyyətçi ilə satışın təşkilatçıları arasında razılaşma əsasında torpağın normativ qiymətindən az olmamaq şərti ilə müəyyən edilir.

Beləliklə təklif olunur ki, bu qiymətlər bilavasitə bələdiyyələr tərəfindən deyil, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilsin. Bununla bağlı Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarda, eləcə də "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"də müvafiq dəyişiklik edilir.

08_27 IYUl-QARA.qxd 2/27/2025 10:47 PM Page 9





# İsa Qəmbər Bakıda erməni deputatlarla görüşüb? - İDDİA

***Müsavat Partiyasının başqanı, Azərbaycan parlamentinin sabiq sədri İsa Qəmbərin Bakıda erməni deputatlarla gizli danışıqlar apardığı iddia edilib.***

"Unikal" xəbər verir ki, bu iddianı sabiq müdafiə naziri Rəhim Qazıyev səsləndirib. O bildirib ki, İsa Qəmbər bir qrup erməni deputatın Azərbaycan və Ermənistan arasındakı münaqişəni dinc yolla nizamlamaq məqsədli yazılı müraciətini parlament üzvləri və xalqdan gizlədib. Bu müraciət sonralar İ.Qəmbərin arxivindən çıxarılaraq Rəhim Qazıyevə ötürülüb.

Sabiq baş nazir Pənah Hüseyn də məsələyə münasibət bildirib. O, Rəhim Qazıyevin yalan danışdığını deyib.

Pənah Hüseyn Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın dövründə parlamentin deputatı olan Aşot Bleyan və onun gətirdiyi müraciətlə bağlı sübutlar da dərc edib:

"5 noyabr, 1992-ci ildə, Bleyan Bakıda olduğu vaxtda, parlamentin spikeri İsa Qəmbər iclasda çıxış edərək sözügedən məsələ və sənəd haqqında deputatlara məlumat verib. Səhəri gün müvafiq məlumat rəsmi dövlət qəzeti olan "Azərbaycan"da dərc edilib. Yəni bütün ölkə və dünya ictimaiyyəti bir qrup erməni deputatların müraciəti ilə tanış olub. Nəhayət, Bleyan elə Bakıda olarkən həmin sənəddə imzası olduğu deyilən Ermənistan parlament üzvlərinin bundan imtina etdikləri barədə İrəvanda açıqlama yaydı. Həmin açıqlama Ermənistan mediasında da dərc edilərək Bakıya da çatdı".

# Türkiyədə Xocalı soyqırımının 33-cü ildönümü anıldı




***Türkiyənin Konya vilayətində Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı sərgi-tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, Konya Ədalət Sarayında baş tutan tədbirə türk və azərbaycanlı hüquq müdafiəçiləri, eləcə də yerli və xarici media işçiləri və digərləri böyük diqqət göstərib. Tədbirin Ədalət Sarayında keçirilməsi isə simvolik məna kəsb edir. Belə ki, bununla Xocalı faciəsini törədənlərin ədalət qarşısında cavab verəcəyinə işarə edilib.

Vəkil Fidan Mustafayeva sərgiyə qatılanlara Xocalı faciəsi haqqında ətraflı məlumat verib, hazırda isə antiterror əməliyyatından sonra Xocalıya böyük qayıdışın başlandığını bildirib.

Vəkillər Bürosunun sədri Oktay Unkur sərgi əsnasında bildirdi ki, Türkiyə qardaş Azərbaycan xalqının faciəsini bölüşür, soyqırımını dünyada tanıtmaq təşəbbüsünü dəstəkləyir.

***Ağarza Elçinoğlu***

# Müavinət, təqaüd və sosial yardımlar ödənildi

***Bu ilin fevral ayının müavinət, təqaüd və ünvanlı dövlət sosial yardımları da yekunlaşdırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb.

Qeyd edək ki, fevralın 11-də Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu, fevralın 25-də isə bölgələrdə yaşayan şəxslərin pensiyaları, habelə güzəştli şərtlərlə təyin edilmiş pensiyalar ödənilib.

# QMİ Ramazanla bağlı fətva verdi

***Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurası Ramazan ayının başlaması ilə bağlı fətva verib.***

"Unikal"ın məlumatına görə, fətvada deyilir: "Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası mübarək Ramazan ayının başlanması münasibəti ilə dünya və ölkə müsəlmanlarını təbrik edir, Uca Allah-Təaladan müqəddəs orucluq ayında ibadətlərimizin qəbula yetməsini diləyir.




Qazılar Şurası bu ilki Ramazan Fətvasını dindarlarımızın nəzərdiqqətinə təqdim edir və bildirir ki, Qafqaz Müsəlmanları İdarəsinin müvafiq sorğusuna əsasən Elm və Təhsil Nazirliyi Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının 32/20 saylı 18 fevral 2025-ci il tarixli cavab məktubuna görə, bu il Ramazan ayının 1-i miladi təqvimlə mart ayının 1-nə təsadüf edəcək.

Ərəfəsində olduğumuz on bir ayın sultanı olan Ramazanın gəlişi xalqımız üçün bu il də çox əlamətdardır. Şükürlər olsun ki, Qarabağ Fatehi kimi tarixi ad qazanan Prezidentimizin fədakar səyləri və müdrik siyasəti sayəsində biz Ramazanı qalib xalq, böyük Zəfər niyyətinə yetişmiş millət kimi qarşılayırıq.

Mübarək ayın verdiyi bu fürsətdən istifadə edərək suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası, əzəli torpaqlarımıza Böyük Qayıdışın təmin olunması, viran qoyulmuş ərazilərimizə yeni nəfəs verilməsi, Qarabağda müasir həyat şəraitinin qurulması, bərpa edilmiş məscidlərimizdə azanların verilməsi, bayram namazlarının qılınması naminə fövqəladə uğurlara imza atmış dövlət başçısı Prezident İlham Əliyevə, eləcə də ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya Azərbaycan dindarları adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan cansağlığı diləyirik. Bu möhtəşəm Zəfərin təcəllisi naminə canından keçən bütün şəhidlərimizə Uca Allahdan rəhmət diləyir, qazilərimizə şəfaət və səadət arzulayırıq.

Əziz müsəlman qardaş və bacılar! Bu ilki Ramazan xalqımızın qədim bayramı Novruz günlərinə təsadüf edəcək. Şəri baxımdan belə əlamətdar günlərin üst-üstə düşməsi cəmiyyətdə bir çətinlik yaratmır, çünki İslamın təməl prinsiplərindən olan oruc ibadəti ilk növbədə Allahın əmridir. Allahın rəhmət və bərəkətinin gəlişinə görə oruclular üçün ruhu və qəlbləri sevindirən Ramazan da, təbiətin Rəbbül-Aləm tərəfindən yenidən oyanışının rəmzi olan Novruz da mübarək bayramlar qismindədir.

Ramazanda Quran oxumaq, elm-irfan və ibadətlə məşğul olmaq, iftar süfrələri açmaq, xeyriyyəçilik etmək, ehtiyaclı şəxslərə, kimsəsizlərə, uşaq evlərinə, ahıl və qocalara köməklik göstərmək, valideynlərin qayğısına qalmaq savab əməllərdəndir və bu ənənəvi əməllər mahiyyəti etibarı ilə Novruz adətləri ilə eynidir.

Çərşənbələr daxil olmaqla Novruz bayramı gecəsində açılan süfrələr iftarın saatlarına uyğun olmalıdır. Tövsiyə edirik ki, bu mübarək günlərdə torpaqlarımız, Vətənimiz uğrunda canlarını fəda edən qəhrəman şəhidlərimizin xatirəsi yad edilsin, ruhlarına dualar oxunsun, şəhid və qazi ailələrinə qayğı və diqqət göstərilsin. Qazılar Şurası din xadimlərimizin və yerlərdəki imamlarımızın nəzərinə çatdırır ki, Ramazanın vacibatları, qayda və qadağaları, müstəhəb əməlləri barədə dindarlara ətraflı şəkildə məlumatlar və şərhlər verilsin, QMİ-nin hazırladığı moizə və xütbə kitablarına əsaslanaraq dindarlarımıza Ramazanda mənəviəxlaqi dəyərlər, vətənpərvərlik və dövlətçiliyə sədaqət məfkurəsi təbliğ olunsun. Xüsusi olaraq bir daha dindarlarımıza və din xadimlərimizə xatırlatmaq istərdik ki, iftardan öncə məclislərdə süfrə açılması Allahın hökmü, Peyğəmbərin əmri ilə şəri baxımdan qəbul edilməyən böyük günahdır.

Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsi mübarək Ramazan ayının gündəlik duaları, imsak-iftar vaxtlarını əks etdirən xüsusi təqvim tərtib edib. Bu təqvim İdarəmizin internet saytında (www.qafqazislam.com) yerləşdirilib. Əhalimizin və bütün kütləvi informasiya vasitələrinin məhz QMİnin təqviminə istinad etmələri tövsiyə olunur. İnşallah, Qafqaz Müsəlmanları İdarəsi Şamaxı Astrofizika Rəsədxanasının məlumatına əsaslanaraq Eydül-Fitr - Ramazan bayramının hilalın görünüşünə görə 30 Mart tarixinə təsadüf edəcəyini bildirir, müəyyən dəyişikliklər olacağı təqdirdə əlahiddə məlumat veriləcək".

# Həkimdən Teymur Musayevə sərt etiraz

## Rəsul Nurəddinov: "Nə vaxta qədər sizin səhvlərinizdən əziyyət çəkməliyik?"

***"Hörmətli səhiyyə nazirimiz Teymur müəllim, istəyirəm ki, indidən oğlumun stomatoloq ixtisasına marağını artırım. Bunun üçün onunla söhbət etmişəm, nəticəsi də var. Onun 11 yaşı var, planlarımızı indidən qururuq".***

"Unikal" xəbər verir ki, bu sözləri həkim Rəsul Nurəddinov "Facebook" hesabında yazıb.

"Mənim kimi bir çox kolleqalarım da bu mövzuda öz övladları ilə söhbət edirlər. Amma şəxsən sizə bir neçə sualım var, ümid edirəm ki, bu suallara cavab alınacaq. Çünki planımızın reallaşması sizin cavabınızdan asılıdır.

Həkimlər sizdən narazıdır. Biz həkimləri çox incidirsiniz, sertifikasiya imtahanlarında suallara səhv cavab yazmağı tələb edirsiniz ki, imtahan komissiyası onu düzgün kimi dəyərləndirsin. Bununla da sertifikasiya sənədimiz əlimizdə olsun ki, ali təhsilimiz növbəti 5 ildə tamamlanmış hesab olunsun; bizə sertifikasiya imtahanlarında lazımsız sualları verirsiniz; bizdən 50 qəpiyə satılan, gülüş doğuran xəstəlik kartlarını doldurmağımızı tələb edirsiniz ki, klinika cərimələnməsin; klinikalara lisenziyanın alınması üçün lazımsız tələblər qoyursunuz.

İstəmirəm ki, mənim oğlum da stomatoloq olanda 2025-ci ildə olan biabırçılıqla üzləşsin. Əgər hər şey belə davam etsə, ölkədə həkim valideynlər öz övladlarını həkim kimi görmək istəməyəcək və ya xaricdə fəaliyyətləri üçün çalışacaqlar.

Nə vaxta qədər sizə həvalə olunan xalqın həkim qismi sizin səhvlərinizdən əziyyət çəkməlidir? Bəlkə bizi eşidəsiniz? Axı sizin bu mövqeyinizi illərin həkimləri dəs-



təkləmir, sizin yanlış yolda olduğunuzu deyir. Biz nə edək ki, bizi eşidəsiniz?

Səhiyyəmizdə olan böyük problemlərin həlli yollarını kim cənab nazirimiz Teymur müəllimə bizdən daha yaxşı çatdıracaq? Bizim məqsədimiz ancaq səhiyyəmizin və həkimlərimizin inkişafıdır", - deyə o qeyd edib.

08_27 IYUI-QARA.qxd 2/27/2025 10:47 PM Page 10



# Oqtay Şirəliyevin qalmaqallı kadrına ağır ittihamlar

## Elmi-Tədqiqat Kardiologiya İnstitutunda "sular durulmur" - Professorlardan boykot qərarı!

***Səhiyyə Nazirliyinin akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunda növbəti qalmaqal baş verib. Bakupost.az -ın əldə etdiyi məlumata görə, İnstitutun direktoru Gülnaz Dadaşovanın elmi işçilər üçün attestasiya keçirmək cəhdi fiasko ilə nəticələnib. Belə ki, birinci mərhələdə attestasiyaya cəlb edilən elmi dərəcəsi olan (elmlər doktorları və tibb üzrə fəlsəfə doktorları) 20 nəfərə yaxın tibbi işçisi attestasiyanın qanunsuz olduğunu əsas gətirərək, orada iştirak etməkdən imtina ediblər.***

Qeyd edək ki, elmi-tədqiqat institutlarında attestasiyalar "Elm haqqında" Qanuna əsasən keçirilir. Qanunun 13-cü maddəsinə görə, elmi-tədqiqat institutlarının ali idarəetmə orqanı onun Elmi Şurasıdır. Elmi Şura institutun strukturunu müəyyən edir, səlahiyyətli orqanlar qarşısında vəsatət qaldırır, həmçinin elmi işçilərin attestasiyasını təşkil edir. Attestasiya Elmi Şuranın qərarı ilə yaradılan Attestasiya Komissiyası tərəfindən həyata keçirilir. Attestasiya qaydaları isə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilir.

İddialara görə, Elmi-Tədqiqat Kardiologiya İnstitutunun professorları attestasiyanın təşkili zamanı bu qaydalara əməl olunmadığı və ciddi qanun pozuntularına yol verildiyini bildiriblər. Belə ki, attestasiyanın keçirilməsi Elmi Şurada müzakirə olunmalı və müvafiq Attestasiya Komissiyası yaradılmalı olduğu halda, İnstitutun direktoru bu addımı Şura üzvlərinin xəbəri olmadan atıb. İnstitutun elmi işçilərinin dediyinə görə, Gülnaz Dadaşova özünə yaxın şəxslərin də daxil olduğu 3 nəfərlik komissiya yaradıb: "Attestasiyaya düşən suallar isə İnstitutun hüquqşünası tərəfindən (?) tərtib edilib və tibbə aid olmayan suallar olub. Hətta attestasiyaya Konstitusiya, "Təhsil haqqında" Qanundan suallar salınıb. Ən maraqlısı odur ki, Gülnaz Dadaşova öz aləmində professorları sındırmaq üçün Attestasiya Komissiyasına özünün inzibati(təsərrüfat) məsələlər üzrə müavini Azər Mirzəxanlını da salıb. Onun nəinki ali, elementar tibb təhsili belə yoxdur. Daim işçilərlə kobud davranışı ilə seçilən Azər Mirzəxanlı attestasiyanı boykot edən professorların üstünə qışqırmaqdan belə çəkinməyib".

O da qeyd olunur ki, şöbə rəhbərləri - professor Nazim Abdullayev, professor Rufulla Abdullayev, tibb üzrə fəlsəfə doktoru Rafiq Yusifli, tibb üzrə fəlsəfə doktoru Rüfət Cəmilov direktorun qeyri-qanuni hərəkətləri, institutdakı hegemonluğu, yarıtmaz idarəetməsindən şikayətləniblər. Onlar direktoru elmi işlərin aparılmasına heç bir şərait yaratmamaqda, işlədiyi bu illər ərzində elmi işçiləri daim təzyiq altında saxlamaqda və təhqir etməkdə, professorları ətrafına yığdığı və "öz komandam" adlandırdığı adamların əli altında işlədərək onlara tabe etdirməkdə, "Elm haqqında" Qanunun tələblərini pozaraq qeyri-qanuni formada attestasiya keçirməyə cəhd etməkdə, elmi işçilərin hüquqlarını kobud şəkildə pozmaqda ittiham ediblər.

Attestasiyaya cəlb olunan alimlər bildiriblər ki, Elmi-Tədqiqat İnstitutunun əsas fəaliyyəti fundamental, tətbiqi elmi tədqiqatlar və eksperimental araşdırmaların aparılmasından ibarətdir. Ancaq son 6 ildə elmi şöbələr heç bir avadanlıq, cihaz, material və kompüterlərlə təmin olunmayıb.

İnstitutun elmi işçiləri həmçinin sualları tərtib edən hüquqşünasın İnstituta çağırılmasını tələb ediblər. Onlar həmin hüquqşünasa sualları olduğunu bildiriblər.

Professorlar Elmi Şura tərəfindən



təsdiq edilməyən qeyri-qanuni ekspert komissiyasının üzvü, İnstitutun Həmkarlar İttifaqının sədri Ruslan Nəcəfovdan Əmək Məcəlləsində yazılmış maddələri düzgün şəkildə oxuyub kollektivə çatdırmağı tələb ediblər və çox çətinliklə də olsa, buna nail olublar. Mənbə bildirib ki, sayğısızlıqdan əsəbləşən professorlar həmçinin direktorun elmi işçiləri heç bir elmi konfransa buraxmamasını, Kardiologiya İnstitutunda antisanitariya şəraitinin hökm sürdüyünü, tibb ocağında çalışan alimlərin ayaqyoluna getmək üçün növbəyə dayandığını, müəssisədə normal iş şəraiti və işgüzar atmosferin yaradılmadığını, bütün bunların qarşılığında isə yüksək elmi dərəcəsi olan alimlərin ibtidai sinif şagirdləri kimi imtahan edilməsinin təhqiramiz olduğunu deyiblər: "Bundan sonra alim-professor heyəti İnstitut direktorunun elmi işçilərin hüquqlarını pozan davranışına etiraz əlaməti olaraq Gülnaz Dadaşova tərəfindən sinif otağına oxşadılan, bəzədimiş konfrans zalını nümayişkaranə şəkildə tərk ediblər.

Bu hadisədən sonra özünü-itirən və əl-ayağa düşən Gülnaz Dadaşova elmi dərəcəsi olmayan işçilər üçün növbəti attestasiyanı da təxirə salıb. O, bütün bunlardan xəbəri olmadığını deyib və attestasiyaya görə bütün günahları elmi işlər üzrə müavini Rəfail Daşdəmirov və hüquqşünas Azad Aslanovun üzərinə ataraq onları işdən azad edəcəyini deyib".

Bildirilir ki, artıq institutun professor-alim heyəti direktor Gülnaz Dadaşovanın bu özbaşınalıqlarına dözməyərək, məsələ ilə bağlı Səhiyyə naziri Teymur Musayevə və digər aidiyyəti orqanlara məlumat veriblər.

Yazıda səslənən ittihamlarla bağlı Elmi-Tədqiqat Kardiologiya İnstitutunun mətbuat xidmətindən isə bildiriblər ki, elmi attestasiya Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə, akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun Nizamnaməsinə və Elmi Şuranın əsasnaməsinə uyğun təşkil edilib: "Hazırda komissiya üzvlərinin və sədrinin yekun rəyi və hesabatı təqdim edilməyib. Hər hansı rəsmi yazılı şikayət də daxil olmayıb. Yekun sənədlər təqdim olunduqdan sonra mövzu ilə bağlı daha dəqiq məlumat vermək mümkün olacaq".

Onu da deyək ki, adıçəkilən institutun rəhbərliyi ilə kollektiv arasında qalmaqal uzun müddətdir davam edir. İndi isə həmin qalmaqallar siyahısına yenisi əlavə olunub.

"Unikal"ın araşdırmasına görə, direktor G.Dadaşova sabiq səhiyyə nazirinin etimad göstərdiyi kadrlardan biri olub. "Oqtay müəllim 2018-ci ilin sentyabrında Gülnaz xanımı direktor təyin edib. Həmin vaxt bildirilib ki, belə bir təyinat barədə Səhiyyə Nazirliyinin Kollegiyasının qərarına əsasən əmr imzalanıb. Lakin əmrin imzalanmasında həlledici amil keçmiş nazirin iradəsi olub" - qəzetimizə daxil olan məlumatda vurğulanır.

Əmrə əsasən, Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "a" bəndinə əsasən Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru Adil Baxşəli oğlu Baxşəliyev öz xahişi ilə tutduğu vəzifəsindən azad edilib.

Sabiq nazirin digər əmrinə əsasən Dadaşova Gülnaz Mahir qızı Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru vəzifəsinə təyin olunub.

Qeyd edək ki, G. Dadaşova 2006-cı ildən Elmi-Tədqiqat Kardiologiya İnstitutu, Ürək çatışmamazlığı şöbəsində kardioloq işləyib.

Təxminən 3 il öncə onun idarəçiliyindən narazılıqlar yaranıb, bir müddət sonra isə həmin narazılıqlar ictimailəşməyə başlayıb. Son bir ildə isə direktorla institut kollektivinin önəmli bölümü arasında ixtilaf pik həddə çatıb. Bu müddətdə tərəflər bir-birinə qarşı müxtəlif ağlasığmaz ittihamlarla çıxış edirlər.

Maraqlıdır ki, Şirəliyevin ardından səhiyyə naziri təyin olunan Teymur Musayev hələ də Elmi-Tədqiqat Kardiologiya İnstitutunda yaranmış xaotik vəziyyətə müdaxilə etmək istəmir. Bunun səbəbi, yaxud səbəbləri isə maraq doğurur...

***Sənan Mirzə***



# ƏDV ilə bağlı qanunvericiliyə dəyişiklik olunur

***İşğaldan azad edilmiş ərazilərin fəaliyyət sahələri üzrə texnoloji avadanlıqların idxalının ƏDV-dən azad edilməsi ilə bağlı qanunvericiliyə dəyişiklik olunur.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçiriln iclasında müzakirəyə çıxarılan "Lisenziyalar və icazələr haqqında" Qanuna təklif olunan dəyişiklikdə öz əksini tapıb.

Layihəyə əsasən, sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına sənaye, texnologiyalar parklarının rezidenti, idarəedici təşkilatı və operatoru, investisiya təşviqi sənədi almış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənəd aid edilir.

Qüvvədə olan Qanuna əsasən, sözügedən siyahı sənaye, yaxud texnologiyalar parklarının rezidenti, idarəedici təşkilatı və operatoru, habelə investisiya təşviqi sənədi almış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənəddən ibarətdir.

Bu Qanun işğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların, xammal və materialların idxalı üçün təsdiqedici sənədə münasibətdə 2023-cü il yanvarın 1-dən tətbiq edilməklə 2033-cü il yanvarın 1-dək qüvvədədir.

Qeyd edilib ki, ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazilərin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən təsdiq olunmuş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV-dən və gömrük rusumlarından azad edilib. Azadolmalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında tətbiq edilir.

Qeyd edilən təsdiqedici sənədin "sahibkarlıq fəaliyyətinə verilən icazə" xarakterli olması nəzərə alınmaqla, "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 75-ci maddəsi yeni redaksiyada verilir, bununla da həmin təsdiqedici sənəd icazələrin siyahısına daxil edilir.




## 2024-cü il ərzində Goranboy rayonunda sənayenin əsas göstəriciləri

***2024-cü ildə qeydə alınmış 20 sənaye müəssisəsindən 15-i fəaliyyət göstərmişdir. Rayon sənayesini əsasən elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı, mədənçıxarma sənayesi və emal sənayesi təşkil etmişdir.***

2024-cü ildə sənaye müəssisələri, həmçinin sənaye fəaliyyəti ilə məşğul olan fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən əvvəlki illə müqayisədə sabit qiymətlərlə 1,1 faiz çox və ya 38806,8 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

İstehsal edilmiş məhsulların və göstərilmiş xidmətlərin 15109,0 min manatı və ya 38,9 faizi emal, 6536,2 min manatı və ya 16,8 faizi mədənçıxarma, 15532,9 min manatı və ya 40,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1628,7 min manatı və ya 4,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrinin payına düşür.

Əvvəlki illə müqayisədə mədənçıxarma sənayesində 1,1 faiz artım, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 3,6 faiz azalma, emal sənayesində isə 49,7 faiz artım, su təchizatı və tullantıların təmizlənməsi sahəsində isə 3,7 faiz azalma olmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 55,8 faiz olmuşdur. Ümumi istehsalın 55,8 faizi sənaye məhsullarının istehsalı, 44,2 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

2024-cü ildə istehsal edilmiş emal sənayesinin əsas hissəsini tikinti materiallarının istehsalı təşkil edir. Emal sənayesinin bu sahəsi üzrə hesabat dövrü ərzində 6535,0 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da bütün emal sənayesi məhsulunun 43,2 faizini təşkil etmişdir. Əvvəlki illə müqayisədə hazır metal məmulatlarının istehsalında 61,5 faiz artım, tikinti materiallarının istehsalında isə 5,9 faiz azalma müşahidə olunmuşdur. İstehsal edilmiş sənaye məhsulunun əksəriyyəti istehlakçılara göndərilmişdir. Sənaye müəssisələri tərəfindən əhaliyə göstərilmiş ödənişli xidmətin həcmi 10626,6 min manat təşkil etmişdir. 2025-ci ilin yanvar ayının 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında əvvəlki dövrlərdən qalan qalıqlar da nəzərə alınmaqla 3265,9 min manat dəyərində məhsul ehtiyatı olub ki, bu göstərici də əvvəlki ilə nisbətən 33,0 min manat çox olmuşdur.

İlkin məlumatlara əsasən 2024-cü ildə sənaye müəssisələrində siyahı tərkibində olan işçilərin sayı 1247 nəfər, bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı isə 567,9 manat olmuşdur. Əvvəlki illə müqayisədə işçilərin sayı 59,3 faiz, orta aylıq nominal əməkhaqqı isə 3,2 faiz artmışdır.

***Goranboy rayon Statistika İdarəsi***

## Ucarda əhaliyə göstərilən ödənişli xidmətlər

2024-cü ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2023-cü ilə nisbətən 4,4 faiz artaraq 40697,1 min manat təşkil etmiş və hüquqi şəxslər tərəfindən əhaliyə 10052,2 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 30644,9 min manat xidmətlər göstərilmiş və xidmətlərin ümumi həcmində onların xüsusi çəkisi müvafiq olaraq 24,7 və 75,3 faiz təşkil etmişdir.

***Ucar Rayon Statistika İdarəsinin rəis müavini Emin Qəhrəmanov***

# Şəmkirdə hələ də Alimpaşa Məmmədovun yolunu gedənlər varmış...

## Sabiq icra başçısı qanunsuz əməllərinə görə həbsə atılan rayonda məmurlardan şikayətlər hələ də səngiməyib

***Şəmkir Rayon İcra Hakimiyyəti 382 hektar qış otlaq sahəsini mal-qarası olmayan şəxsə icarəyə verib. Bu barədə Qaynarinfo-ya Şəmkirdə fermer təsərrüfatı ilə məşğul olan Rasim Bayramovun nümayəndəsi Ədalət Müseyibov bildirib.***

Onun sözlərinə görə, Rasim Bayramovla otlaq sahəsinin icarəyə verildiyi Suliddin Abdullayev adlı şəxs arasında borc mübahisəsi yaşanır. Mübahisənin kökündə sözügedən otlaq sahəsi ilə bağlı alqı-satqı dayanır: "Suliddin Abdullayev həmin sahəni Rasim Bayramova satıb. Lakin sonradan məlum olub ki, bu məsələdə qanunsuzluq var. Ona görə də Rasim Bayramov pulunu geri istəyib. Təsəvvür edin, 382 hektar örüş sahəsi mal-qarası olmayan bir şəxsə icarəyə verilib. Özü də saxta yolla.

Ərazinin Suliddin Abdullayevə icarəyə verilməsini rəsmiləşdirmək üçün Eynullayev Hafiz Rüstəm oğlunun barəsində tərtib olunmuş AKT-dan istifadə olunub (yəni həmin AKT-ın Suliddin Abdullayevə ümumiyyətlə heç bir aidiyyatı yoxdur). Həmin AKT kiril əlifbası ilə tərib edilib və yalnız AKT-n sonuncu abzasından əvvələ zorla latın qrafikalı əlifba ilə "Abdullayev Suliddinə satılsın", imza hissəsində də "A.Suliddin" sözləri yazılıb".

Ədalət Müseyibov əlavə edib ki, Torpaq Məcəlləsinin 16-cı maddəsinin 4-cü bəndinə əsasən yay və qış otlaqları, habelə bələdiyyə ehtiyat fondunun örüş və biçənək sahələri hüquqi və fiziki şəxslərin icarəsinə, bir qayda olaraq, 10 ildən 15 ilədək verilə bilər: "Örüş, otlaq və biçənək sahələrinin icarə müddəti başa çatdıqda, müqavilə qanunvericiliklə müəyyən edilmiş qaydada keçirilən torpaq hərracı və ya müsabiqəsi nəticəsində uzadıla bilər. Yay və qış otlaqlarının, örüş və biçənək sahələrinin istifadəçilərinin və icarəçilərinin mal-qarasının sayı iki dəfədən çox azaldıqda, yaxud heyvanlar tamamilə ləğv edildikdə və ya onların mülkiyyətçisi dəyişdikdə icarə müqaviləsinə və istifadə haqqında qərara qanunvericiliklə müəyyən olunmuş qaydada yenidən baxılır. Yenə həmin Məcəllənin 5-ci maddəsinə əsasən qış otlaqlarına tələbat hesablanarkən otlaqların bitki örtüyündən, keyfiyyətindən, tutumundan, habelə torpaqların mexaniki tərkibindən və humus qatının qalınlığından asılı olaraq, hər hektara 1-4 baş, yay otlaqlarında isə iki dəfə artıq davar nəzərdə tutulur. Göründüyü kimi qış-otlaq sahəsi mütləq heyvandarlıqla məşğul olan şəxslərə verilir. 382 hektar örüş sahəsi də Suliddin Abdullayevə verildiyi üçün onun yuxarıda qeyd olunan Məcəllənin tələbinə əsasən ən azı 1380 başdan yuxarı xırda buynuzlu heyvanı olmalıdır".

Onun sözlərinə görə, Şəmkir rayon Statistika İdarəsinin 11 iyun 2024-cü il tarixli məktubunda Suliddin Abdullayevin 1136 baş xırda buynuzlu heyvanı olduğu qeyd olunub. Şəmkir rayon Qılıncbəyli kənd İcra Nümayədəliyinin arayışında isə Suliddin Abdullayevin cəmi 3 baş iribuynuzlu heyvanı olduğu yazılıb. "Göründüyü kimi Suliddin Abdullayevin əslində 3 baş iribuynuzlu heyvanı var. Bu halda ona 382 hektar örüş sahəsinin icarəyə verilməsi mümkün deyil. Həmin ərazini ona vermək üçün rəsmi sənədlərə yalan məlumatlar daxil edilib. Guya ki, Suliddin Abdullayevin 1136 baş xırdabuynuzlu heyvanı var. Çoxsaylı şikayətlərimizdən sonra Şəmkir rayon Statistika İdarəsi bizə 13 yanvar 2025-ci il tarixli rəsmi məktub göndərib. Həmin məktubda heyvanların sayı barədə Suliddin Abdullayev tərəfindən onlayn məlumat verildiyi və hazırda onun heyvanları satması qeyd olunub. Qeyd edim ki, Cinayət Məcəlləsinin 308-ci maddəsinin qeyd hissəsinə əsasən, Suliddin Abdullayev vəzifəli şəxs sayılır (çünki o sahibkardır və heyvanların sayı barədə məlumatları da sahibkar kimi verib)".

Ədalət Müseyibov deyib ki, Suliddin Abdullayevin əslində heyvanının olmaması barədə Şəmkir Rayon İcra Hakimiyyətinə dəfələrlə məlumat verilib. İcra Hakimiyyəti isə Rasim Bayramova ünvanladığı məktubda qeyd edib ki, Suliddin Abdullayevin sözügedən torpağın başqasına icarəyə verməsi məsələsi araşdırılır. Əlavə olunub ki, bundan sonra məhkəməyə, həmçinin əlaqədar yuxarı instansiyalara müraciət ediləcək.

Məsələ ilə bağlı Şəmkir Rayon İcra Hakimiyyəti ilə əlaqə saxladıqda isə qurumdan əməkdaşımıza hüquq şöbəsi ilə əlaqə saxlamağı tövsiyə olunub. Lakin hüquq şöbəsindən zənglərə cavab verən tapılmayıb. Yazıda adı keçən Suliddin Abdullayevlə də əlaqə saxlamaq mümkün olmayıb.



Xatırladaq ki, 2021-ci ilin sentyabrından Şəmkir Rayon İcra Hakimiyyətinə Rəşad Tağıyev rəhbərlik edir. Rayonun sabiq icra başçısı Alimpaşa Məmmədov isə elə həmin ilin aprelində Dövlət Təhlükəsizlik Xidməti tərəfindən həbs olunub. O, Cinayət Məcəlləsinin 179.4 (mənimsəmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə təqsirləndirilib.

Hazırda həbsdə olan Alimpaşa müəllimin zamanında Şəmkirdəki özbaşınalıqlardan biri də müxtəlif şəxslərə məxsus torpaqların qanunsuz şəkildə əllərindən alınması, ya da ayrı-ayrı kəndlərdəki torpaq sahələrinin qeyri-qanuni icarəyə verilməsi ilə bağlı olub. İndi belə çıxır ki, sabiq icra başçısının dövründəki bu ənənə hələ də bir sıra yerli məmurlar tərəfindən davam etdirilir. Və görünən odur ki, Alimpaşa müəllimin təkcə vəzifəsini deyil, azadlığını da itirməsi bu rayonun bəzi səlahiyyət sahiblərinə dərs olmayıb.

Onu da deyək ki, Rəşad Tağıyevin icra başçısı təyin edilməsindən bir müddət sonra mediada, sosial şəbəkələrdə Şəmkirdə Alimpaşa Məmmədov "ənənələrinin" yaşamasından xəbər verən şikayətlərə rast gəlinirdi. Artıq belə şikayətlərin daha da intensivləşdiyi müşahidə olunur. Bu isə həbsdəki sabiq icra başçısının yerinə təyinat almış Rəşad Tağıyevin dövlət rəhbəri tərəfindən ona göstərilmiş etimadı layiqincə doğrultduğuna dair ciddi şübhələr yaradır...

***Sənan Mirzə***

# 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Köhnə avtomobillərin utilizasiyası atmosfer havasının keyfiyyətini yüksəldir

## Eldəniz Cəfərov: "Bu ilin yanvar ayının 30-na qədər 670 ədəd avtomobil utilizasiyaya göndərilib"

***Ətraf mühitin çirklənməsində istismar müddəti başa çatmış avtomobillərin rolu böyükdür. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bir müddət öncə ölkə üzrə atmosfer havasının keyfiyyətini açıqlayıb. Monitorinq zamanı məlum olub ki, Bakıda ən çirkli hava Xətai rayonundadı. Belə ki, paytaxtın Xətai rayonunda dəm qazının normadan 1.6 dəfə yüksək olduğu qeydə alınıb.***

Ekoloq Telman Zeynalov "Unikal" qəzetinə açıqlamasında bildirib ki, daxili yanma mühərrikli avtomobillərdən xaric olunmuş işlənmiş qazlar havanın keyfiyyətinə təsirsiz ötüşmür. Onun sözlərinə görə, avtomobillərin texniki vəziyyəti havanın keyfiyyətinə təsir göstərir. Belə ki, köhnə avtomobillərin mühərriklərinin işlənmiş qazlarında zərərli maddələrin miqdarı yüksəkdir. Ekspert ona görə də avtomobil parkının yenilənməsinin, köhnə və istismar müddəti bitmiş avtomobillərin yollardan yığışdırılmasının ekoloji vəziyyətin qorunması baxımından vacib olduğunu söyləyir.

Ekoloq deyir ki, bu gün tıxaclar da atmosfer havasının çirklənməsinin əsas səbəblərindəndir. Onun sözlərinə görə, paytaxtda əhali və avtomobillərin sayının artması Bakıda tıxacları artırır. Çünki, tıxac zamanı havaya daha çox zərərli maddələr atılır. Ekoloq onu da bildirib ki, hazırda Azərbaycanda atmosfer havasını əsas çirkləndirən avtomobillərdir: "Azərbaycanda zavod və fabriklərin çoxu bağlanıb. Bu, bir tərəfdən işsizliyə səbəb olsa da, ekologiyanın qorunması baxımından müsbət haldır. Amma Azərbaycanda avtomobillərin sayı durmadan artır. Bu da havaya zərərli qazların atılmasına gətirib çıxarır. Paytaxt əhalisinin sayının günü-gündən artması isə bu vəziyyəti daha da ağırlaşdırır".

Ekoloq son illər xarici ölkələrdən köhnə avtomobillərin Azərbaycana idxalının artmasının da ekologiyaya mənfi təsir göstərdiyini qeyd edib.

"Xaricdən köhnə avtomobilləri alaraq təmir edib Azərbaycanda satırlar. Bu avtomobillər atmosferi çirkləndirir. Nəticədə zərər atmosfer havasına dəyir".



Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov isə utilizasiya prosesinin atmosfer havasının qorunması baxımından faydalı olacağını söyləyir. Müsahibimiz deyir ki, son vaxtlar ölkəmizdə utilizasiya prosesi sürətlənib. Buna səbəb isə utilizasiya prosesi üçün saytın yaradılmasıdır.

"Utilizasiya prosesi ləng gedirdi. Ötən ilin ortalarında yeni portal istifadəyə verildi. Artıq bu portal vasitəsilə onlayn formada avtomobilin utilizasiyasını həyata keçirmək mümkündür. İndi şəxs özü portala daxil olaraq avtomobil və özü barədə məlumatları daxil etməklə avtomobilini utilizasiya etdirə bilər. Bu ilin yanvar ayının 30-a qədər 670 ədəd avtomobil utilizasiyaya göndərilib. Onların çoxu köhnə sovet maşınlarıdır. Aralarında yük avtomobilləri də var. Bu proses atmosferə zəhərli qazlar buraxan köhnə avtomobillərin ətraf mühitdən yığışdırılmasına, təkrar emala göndərilməsinə səbəb olur", deyə ekspert bildirib.

Qeyd edək ki, Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyasına ötən ilin noyabr ayından başlanılıb. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 dekabr tarixli 852 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda nəqliyyat vasitələrinin utilizasiyası proqramının hazırlanması və tətbiqi nəzərdə tutulub. Dövlət Proqramının Tədbirlər Planının 7.3.7.1-ci bəndinə əsasən, proqramın tətbiqində üç əsas istiqamət müəyyən edilib:

Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək;

ekoloji vəziyyəti yaxşılaşdırmaq;

yerli avtomobil istehsalını stimullaşdırmaq.

Proqramın hazırlanmasında 15-ə qədər dövlət orqan və qurumu, o cümlədən aidiyyəti mütəxəssis və ekspertlər iştirak etmiş, bir sıra dünya ölkələrinin təcrübələri araşdırılmışdır. Həmçinin, proqramın tətbiqi ilə əlaqədar mövcud qanunvericiliyə yeni müddəalar, ümumilikdə 10-dan çox qanunvericilik aktına dəyişiklik və əlavələr edilib.

Proqramın əsas məqsədi köhnəlmiş, texniki-təhlükəsizlik baxımından və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin dövriyyədən çıxarılmasını təmin etməkdir. Bu baxımdan, onun əsas predmeti də öz ilkin istifadə xüsusiyyətlərini itirmiş, mənəvi və fiziki cəhətdən köhnəlmiş, o cümlədən yol hərəkətində istifadəyə yararsız olmaqla tullantı kimi xarakterizə olunan nəqliyyat vasitələridir. Bunu nəzərə alaraq, əsas aidiyyəti normativ-tənzimləyici müddəalar öz əksini "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda tapıb. Bununla belə, nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında həyata keçirildiyindən, tullantı xüsusiyyətlərinə uyğun gəlməyən, tam və ya qismən yararlı nəqliyyat vasitələri də onların sahibləri tərəfindən öz istəkləri əsasında utilizasiyaya verilə bilər.

Məlumat üçün onu da bildirək ki, atmosfer havasının çirklənməsində böyük payı olan köhnə avtonəqliyyat vasitələrindən istifadə zamanı 1 ton benzin yandıqda havaya azot-4 oksid 20 kq, kükürd qazı 1.6 kq, karbohidrogenlər 34 kq, bərk hissəciklər (his, qurum) 2 kq, aldehidlər (üzvü turşular) 1.4 kq atılırsa,1 ton dizel yanacağı yandıqda isə havaya azot-4 oksid 33 kq, kükürd qazı 6 kq, karbohidrogenlər 20 kq, bərk hissəciklər 16 kq, aldehidlər 6 kq atılır. Ağciyər xərçəngindən ölümlərin 36 faizi hava çirkləndiricilərinin təsiri ilə əlaqəli hallardır. ÜST onu da bəyan edib ki, havanın çirklənməsi insanlarda insult riskini artırır ki, bu da dünyada ikinci ən çox yayılan ölüm səbəbidir. İnsultla bağlı ölüm hallarının təxminən üçdəbiri orqanizmə çirkləndirilmiş atmosferin təsiri ilə bağlıdır. Qeyd olunur ki, dünyada yalnız hər 10 insandan biri ÜST-ün standartlarına cavab verən, keyfiyyətli hava olan ərazilərdə yaşayır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# "Azərpoçt" "Postcargo"nu istifadəyə verdi

***"Azərpoçt" MMC-nin təqdim etdiyi "Postcargo" xidməti İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə əməkdaşlıq çərçivəsində "digital.login" ilə giriş funksionallığını istifadəyə verib.***

"Unikal" xəbər verir ki, bu yenilik istifadəçilərə "Postcargo" hesablarına giriş prosesini sadələşdirərək həm vaxta qənaəti, həm də rahatlığı təmin edəcək.

Funksionallıqdan faydalanmaq üçün istifadəçilər https://postcargo.az/ saytına daxil olub "digital.login" vasitəsilə sürətli şəkildə şəxsi hesablarına keçid edə bilərlər. Müştərinin hesabı yoxdursa, sistem avtomatik olaraq yeni hesab yaradacaq. Mövcud hesabı olan istifadəçilər isə birbaşa sistemə daxil olaraq sifarişlərini asanlıqla idarə edə biləcəklər.

Qeyd edək ki, "Postcargo" Azərbaycanın bütün bölgələrini əhatə edən yüzlərlə poçt şöbəsi ilə müştərilərinə xidmət göstərir. ABŞ, Türkiyə və Almaniyadan alış-veriş edən hər kəs üçün bu xidmət bağlamaların sürətli və etibarlı şəkildə çatdırılmasını təmin edir.

# Azərbaycanlı kursant Türkiyədə vəfat etdi

***Naxçıvan şəhəri Heydər Əliyev adına Hərbi Liseyin məzunu, Rusiya Hərbi İnstitunun kursantı olmuş Elvin Quluzadə fevralın 26-da vəfat edib.***



"Unikal" xəbər verir ki, Elvin Quluzadə qan xərçəngindən əziyyət çəkirdi.

Müdafiə Nazirliyi də Elvin Quluzadənin vəfatı ilə bağlı məlumat yayıb. Nazirlikdən bildirilib ki, Rusiyada hərbi təhsil aldığı müddət ərzində, 2024-cü ilin may ayından



Omsk şəhərində yerləşən Akademik N.N.Burdenko adına Baş Hərbi Klinik Hospitalda müalicə olunmuş kursant Quluzadə Elvin Eldəniz oğlu müalicəsini davam etdirmək üçün 19 iyul 2024-cü il tarixindən Türkiyənin Ankara Universitetinin Tibb Fakültəsinin xəstəxanasında yerləşdirilmiş, lakin həkimlərin səyinə baxmayaraq fevralın 25-də qeyd olunan xəstəxanada kəskin leykemiya, reaktiv perikardit (qan xərçəngi) səbəbindən vəfat edib.

Müdafiə Nazirliyinin rəhbərliyi vəfat edən kursantın ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.

Allah rəhmət eləsin.

08_27 IYUl-QARA.qxd 2/27/2025 10:47 PM Page 13






# Ucarda nəqliyyat və rabitənin inkişafı

***2024-cü ildə nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən əhaliyə 4326,8 min manatlıq xidmət göstərilmiş və 2023-cü illə müqayisədə 3,8 faiz çox olmuşdur. Avtomobil nəqliyyatı ilə 2024-cü ildə 6125,0 min nəfər sərnişin, 1360,0 min ton yük daşınmış və 2023-cü illə müqayisədə sərnişin daşınması 6,8 faiz, yük daşınması 5,9 faiz artmışdır.***

2024-cü ildə informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 1274,4 min manatlıq xidmət göstərilmiş, bu da 2023-cü illə müqayisədə 84,4 faiz və ya 585,3 min manat çox olmuşdur.

*Ucar Rayon Statistika idarəsinin baş məsləhətçisi Tural Əzizli*

# "Aztelekom" mükafata layiq görüldü

***"Aztelekom" genişzolaqlı və mobil şəbəkə təhlilləri üzrə qlobal şirkət olan "Ookla" tərəfindən "Speedtest Award for Fastest Fixed Network" (Ən sürətli Sabit Şəbəkə üzrə Speedtest Mükafatı) mükafatına layiq görülüb.***




"Unikal" xəbər verir ki, bu mükafat ölkə tarixində ilk dəfə sabit şəbəkə internet provayderinə təqdim edilir.

"Ookla"® şirkətinin rəsmi səhifəsində yayımlanan hesabatda "Aztelekom"un bu nailiyyətinin 2024-cü ilin 3 və 4-cü rübləri ərzində bütün ölkə ərazisini əhatə edən 306885 abunəçinin müxtəlif tətbiqlər və avadanlıqlar vasitəsilə icra etdiyi 4,389,339 sürət testinin nəticələrinə əsasən müəyyən edildiyi qeyd olunub.

Testlərin nəticələrinə əsasən, ölkə üzrə ən yüksək yükləmə sürəti (Top Download Speed) 181.30 Mbit/s qeydə alındığı halda "Aztelekom" abunəçilərində bu göstərici 408.18 Mbit/s müəyyən olunub.

Qeyd edək ki, "Aztelekom" MMC "Onlayn Azərbaycan" layihəsinin operatorlarından biridir. Layihənin icra müddətində genişzolaqlı internetə çıxış imkanı əldə etmiş təsərrüfat sayı 13 dəfə artırılaraq ölkə üzrə 230 mindən 2.97 milyona çatdırılıb.

Layihənin icrasına başlandığı 2021-ci ildən etibarən ölkə üzrə genişzolaqlı internetin sürətində müsbət dinamika davam edərək 17.2 Mbit/s-dən 2024-cü ildə 66 Mbit/s-yə çatdırılıb və layihə müddətində 4 dəfə artım qeydə alınıb.

# DİM buraxılış imtahanı ilə bağlı məlumat yaydı

***Dövlət Imtahan Mərkəzi (DIM) martın 2-də tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirəcək.***

DİM-Dən "Unikal"a bildirilib ki, 35 şəhər və rayonunda təşkil olunacaq imtahanda 57 min 437 şagirdin iştirakı nəzərdə tutulur.

Martın 2-də DİM tərəfindən Bakı şəhərinin Nərimanov, Sabunçu, Xəzər, Səbail, Nəsimi, Nizami, Abşeron (I hissə), Sumqayıt (I hissə), Gəncə (I hissə), Goranboy, Yevlax, Naftalan, Şəmkir, Gədəbəy, Şirvan, Hacıqabul, Neftçala, Salyan, Göyçay, Ağdaş, Şamaxı, Qobustan, Kürdəmir, Lənkəran, Cəlilabad, Yardımlı, Bərdə, Tərtər, Ağdam, Şəki, Oğuz, Qəbələ, Xaçmaz, Siyəzən, Şabran, Ağdərə (Talış kənd tam orta məktəbi), Xocalı, Xankəndi, Şuşa və Laçında (Şəhər 2 №-li tam orta məktəb, Zabux və Sus kənd tam orta məktəbləri) tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək. Martın 2-də tədrisi ingilis və fransız dilində olan məktəblərin şagirdləri də imtahan verəcəklər.

İmtahan saat 11:00-da başlanır. Saat 10:45-də buraxılış rejimi başa çatacaq. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmayacaqlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.




**Şagirdlər imtahana aşağıda qeyd olunan sənədləri gətirməlidirlər:**

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

Şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

İmtahan iştirakçıları buraxılış vərəqəsini internet vasitəsilə DİM-in saytından fevralın 20-dən etibarən çap edib götürə bilirlər.

Xatırladaq ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 242 imtahan binası, 4292 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 242 ümumi imtahan rəhbəri, 675 imtahan rəhbəri, 4292 nəzarətçi, 747 buraxılışı rejimi əməkdaşı (mühafizə), 242 bina nümayəndəsi ayrılıb.

Martın 2-də keçiriləcək imtahanda 57 min 437 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanda 36 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli şagirdlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

# 2024-cü ildə Ağdaşın istehsal və xidmət sahələri üzrə əsas göstəriciləri belə olub

***2024-cü ilin yanvar dekabr aylarında Ağdaş rayonunda istehsal olunmuş məhsul və xidmətlərin 70,4 faizi istehsal sahələrinin, 29,6 faizi isə xidmət sahələrinin payına düşmüşdür.***

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 238 milyon 757,5 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 98 milyon 861,3 min manatı bitkiçiliyin, 139 milyon 896, min manatı isə heyvandarlığın payına düşmüşdür. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı müqayisəli qiymətlərlə 0,5 faiz, faktiki qiymətlərlə isə 4,9 faiz artmışdır.

2024-cü ildə rayonun 15 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 86 milyon 25,0 min manatlıq və ya əvvəlki ilə nisbətən sabit qiymətlərlə 9,7 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 87,9 faizi emal, 10,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 9 milyon 940,4 min manatı və ya 11,6 faizi dövlət, 76 milyon 84,6 min manatı və ya 88,4 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 77 milyon 850,2 min manatı və ya 90,5 faizi hüquqi şəxslərin, 6 milyon 955,0 min manatı və ya 8,1 faizi ev təsərrüfatlarının, 1 milyon 219,8 min manatı və ya 1,4 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

2024-cü ildə rayonda 41 milyon 161,7 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki illə müqayisədə 3,4 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki illə müqayisədə 38,9 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 41,3 faiz azalmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 34 milyon 645,5 min manatı və ya 84,2 faizi dövlət, 6 milyon 516,2 min manatı və ya 15,8 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 153 milyon 567,6 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki illə müqayisədə faktiki




qiymətlərlə 0,8 faiz və ya 1 milyon 304,8 min manat, sabit qiymətlərlə isə 2,1 faiz və ya 3 milyon 210,1 min manat azdır. İstehsal olunmuş xidmətlərin 145 milyon 375,9 min manatı və ya 94,7 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 7 milyon 714,6 min manatı və ya 5,0 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 477,1 min manatı və ya 0,3 faizi informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 454 milyon 299,8 min manatlıq istehlak malları satılmış və 2023-cü illə müqayisədə rayonda sabit qiymətlərlə 2,4 faiz və ya 11 milyon 224,9 min manat az istehlak malları realizə olunmuşdur.

*Ağdaş Rayon Statistika İdarəsi*

08_27 IYUI-QARA.qxd 2/27/2025 10:47 PM Page 14



# Bakı aeroportu: Yeni reyslər açılacaq

***Heydər Əliyev Beynəlxalq Aeroportu bu yaz mövsümündə sərnişinlərə yeni və genişlənmiş səyahət imkanları təklif edir.***

"Unikal" xəbər verir ki, aparıcı aviaşirkətlər marşrut şəbəkələrini genişləndirərək, mövcud istiqamətlər üzrə uçuşların sayını artırır və səyahətləri daha rahat və əlçatan edir.

- 2 martdan etibarən Air Astana Bakı - Almatı marşrutu üzrə həftədə iki dəfə uçuşlar həyata keçirəcək.

- 21 martdan etibarən Fly Arystan Bakı - Aktau marşrutu üzrə reysləri bərpa edəcək.

- 30 martdan etibarən:

- Pegasus Airlines Dalaman istiqamətində müntəzəm uçuşlara başlayacaq.

- Flynas Bakı - Dammam marşrutu üzrə birbaşa reyslərə start verəcək.

- Uzbekistan Airways Bakı - Daşkənd marşrutu üzrə uçuşların sayını




həftədə dörd dəfəyə qədər artıracaq.

- 15 aprel tarixindən Aegean Airlines Bakı - Afina marşrutu üzrə birbaşa reysləri bərpa edərək Yunanıstanla hava əlaqəsini yenidən açacaq.

- 28 aprel tarixindən AZAL Tivat istiqamətində birbaşa uçuşlar açacaq və sərnişinlərə Monteneqronun füsunkar təbiətini kəşf etmək üçün unikal imkan yaradacaq.

Bundan əlavə, Roma, İstanbul, Küveyt və Ər-Riyad istiqamətlərində reyslərin sayı artırılacaq. Tel-Əvivə uçuşları artıq təkcə AZAL və Israir deyil, həm də Arkia həyata keçirəcək ki, bu da sərnişinlərə daha çox seçim imkanı verəcək.

Sərnişinlər həmçinin Avropa, Yaxın Şərq və Asiyanın əsas turistik və biznes mərkəzlərinə birbaşa uçuşlardan faydalana biləcəklər. Populyar istiqamətlərə Berlin, Paris, Vyana, Barselona, Praqa, Budapeşt, Dubay, Abu-Dabi, Küveyt, Dammam, Pekin, Urumçi, Maldiv adalarındakı Male, Şarm əl-Şeyx və digər şəhərlər daxildir.

Yaz aylarında hava səyahətlərinə olan ənənəvi yüksək tələbatı nəzərə alaraq, sərnişinlərə aviabiletlərini əvvəlcədən sifariş etmələri və səyahətlərini əvvəlcədən planlaşdırmaları tövsiyə olunur.

# Ağdaşda suvarma kanalları lildən təmizlənir

***Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) tabeliyində olan Ağdaş Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən suvarma kanalları lildən təmizlənir, beton üzlüyə alınır, hidrotexniki qurğular təmir olunur və əkin sahələrinin suvarılması üçün hazırlıq görülür.***

Bu barədə "Unikal"a ADSEA-dan məlumat verilib. Bildirilib ki, görülən işlər nəticəsində su itkisi minimuma endirilir, suvarma suyunun maneəsiz axını təmin olunur. Dövlət proqramında nəzərdə tutulan və inşası 2023-cü ildən başlayan ən böyük suvarma şəbəkəsi olan, başlanğıcını Türyançaydan götürən Sağ və Sol sahil adlanan su kanallarının beton üzlüyə alınması davam edir. Sağ sahil şəbəkəsinin 25 kilometr, Sol sahil şəbəkəsinin isə 11,9 kilometr hissəsi beton üzlüyə alınıb. Hər iki şəbəkənin su aparma qabiliyyəti 10 kubmetrdir. Son tamamlanma işləri başa çatmaq üzrədir. Kanallar üzərində müxtəlif işlərə xidmət edən hidrotexniki qurğuların da yenilənməsi ilə yanaşı, su buraxıcılarda SKADA sistemi quraşdırılır. Bu sistem 1-ci nöqtədən suyu qəbul edib, ən son nöqtəyə ötürülməsinə qədər prosesi nəzarətdə saxlayacaq. Suların boş yerə sərf olunması aradan qalxacaq.

Əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi də diqqətdə saxlanılır. Ümumiyyətlə, Ağdaş Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi içməli su xidməti sahəsində əhali üzrə 8975 abonentə, qeyri-əhali üzrə isə 298 abonentə xidmət göstərir. Bu ilin əvvəlindən etibarən su və kanalizasiya xətlərində baş verən qəzalar operativ aradan qaldırılıb.

Qeyd edək ki, Ağdaş Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi üç suvarma şəbəkəsindən istifadə edir. 1-ci suvarma mənbəyi olan Türyançayı əsas su mənbəyi-



dir. Bu çay vasitəsilə rayonun 61 kəndi, 2 qəsəbəsi və Ağdaş rayonunun inzibati şəhər ərazisi suvarma və içməli su ilə təmin olunur. 2-ci suvarma mənbəyi Kür çayıdır ki, bu çay vasitəsilə rayonun əsasən Kür sahili kəndlərinin əkin sahələrinin suvarılması təmin edilir. 3-cü suvarma şəbəkəsi isə Şirvan Suvarma Kanalıdır. Bu kanaldan qəbul edilmiş su ilə əkin sahələrin bir hissəsinə su verilir.

# Yevlax şəhərində tikintinin əsas göstəricilərinə dair 2024-cü ilin statistikası

***2024-cü ildə rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 85494,3 min manat və ya əvvəlki illə müqayisədə 71,1 faiz çox investisiya yönəldilmişdir. Əvvəlki ildə əsas kapitala yönəldilmiş vəsaitin həcmi isə 49959,0 min manat təşkil etmişdir. 2024-cü ildə əsas kapitala yönəldilmiş investisiyaların 54741,3 min manatı dövlət mülkiyyətinə, 30753,0 min manatı isə qeyri dövlət mülkiyyətinə yönəldilmişdir.***

Əsas kapitala yönəldilmiş vəsaitlərin 81077,6 min manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir ki, əvvəlki il ilə müqayisədə 66,3 faiz və ya 32313,4 min manat çox olmuş-




dur. Əvvəlki ildə tikinti quraşdırma işlərinin həcmi 48764,2 min manat olmuşdur.

2024-cü ildə tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş işlərin həcmi 3986,6 min manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 1223,5 min manat və ya 44,3 faiz çox olmuşdur.

2023-cü ildə isə tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş işlərin həcmi 2763,1 min manat olmuşdur.

2024-cü ildə fəaliyyət göstərən tikinti müəssisələrində siyahı tərkibli işçilərin orta sayı 131 nəfər, 2023-cü ilin müvafiq dövründə isə 130 nəfər olmuşdur.

2024-cü ildə muzdlu çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 483,9 manat, əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,3 faiz az olmuşdur. 2023-cü ilin müvafiq dövründə bu göstərici 485,2 manat olmuşdur.

*Hazırladı,*
*Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi*
*Şamxal Mirzəyev*




# 2024-cü ildə Astarada işləyənlərin sayı və əməkhaqqı barədə statistika

***2025-ci il yanvarın 1-i vəziyyətinə rayon iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 8089 nəfər olmuş, onlardan 5723 nəfəri iqtisadiyyatın dövlət sektorunda, 2366 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.***

Muzdla işləyənlərin 21,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 38,9 faizi təhsil, 11,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,9 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 6,8 faizi sənaye, 4,9 faizi istirahət, əyləncə və incəsənət, 3,2 faizi nəqliyyat və anbar təsərrüfatı , 1,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq ,1,1 faizi tikinti, 0,2 faizi maliyyə və sığorta fəaliyyəti, 3,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2024-cü ilin ilkin məlumatlarına əsasən rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 8,5 faiz artaraq 639,3 manat təşkil etmişdir. İqtisadiyyatın maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və müdafiə; sosial təminat, nəqliyyat və anbar təsərrüfatı, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

*Astara Rayon Statistika İdarəsinin rəisi*
*Rəşad Cahangirov*

# Hərbçimiz Cənubi Koreyada təhsilini fərqlənmə ilə bitirdi

***Fevralın 27-də Seul şəhərində Cənubi Koreya Respublikasının Quru Qoşunları Akademiyasında təhsil alan kursantların buraxılış mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Azərbaycan Ordusunun hərbi qulluqçusu leytenant Əliyev Ədib Nazim oğlu təhsildə fərqləndiyi və xarici kursantlar arasında 1-ci yerə layiq görüldüyü üçün medalla təltif olunub.

"Koreya Quru Qoşunlarının Xidmətdə Fərqlənmə Medalı"nı hərbi qulluqçumuza Cənubi Koreya Respublikasının milli müdafiə nazirinin vəzifələrini icra edən cənab Kim Seon-ho təqdim edib.

# Ötən il Ucarda tikinti sektorunun göstəriciləri belə olub

***İlkin məlumatlara əsasən 2024-cü ildə müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 8328,4 min manat və ya 2023-cü illə müqayisədə 28,0 faiz çox investisiya yönəldilmişdir.***

Əsas kapitala yönəldilmiş investisiyanın 7253,7 min manatı və ya 87,1 faizi dövlət, 1074,7 min manatı və ya 12,9 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

*Ucar Rayon Statistika idarəsinin aparıcı məsləhətçisi*
*Cəlil Vəlimməmmədov*

08_27 IYUl-QARA.qxd 2/27/2025 10:48 PM Page 15



# İsrail Qəzza-Misir sərhədindən qoşunlarını çıxarmayacaq



***İsrail Qəzza zolağı ilə Misir arasındakı sərhəddən qoşunlarını çıxarmaq niyyətində deyil.***

"Unikal" xəbər verir ki, bu barədə CNN telekanalı mənbəyə istinadən məlumat yayıb.

Mənbənin sözlərinə görə, İsrail Fələstinin HƏMAS hərəkatının "yük maşınlarında və tüfənglərlə sərhəd boyu hərəkət etməsinə" icazə verməyəcək.

# "Tramp başa düşür ki, Rusiyadan bunu tələb etmək çətindir" - Zaxarova



***"Rusiyadan ərazi güzəştləri tələb etmək çətin olacaq və ABŞ prezidenti Donald Tramp bunu başa düşür".***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova deyib.

Onun sözlərinə görə, Trampın mövqeyi Rusiyanın xarici işlər naziri Sergey Lavrovun təmas xətti boyunca Ukraynada münaqişənin dayandırılmasının qeyri-mümkünlüyü ilə bağlı dediyi sözlərə uyğundur. "Bu, birbaşa olaraq bununla bağlıdır, çünki Donald Tramp bunun çətin olacağını söylədi. Bu, hər kəsin hər şeyi başa düşdüyünü göstərir", - Zaxarova əlavə edib.

Xatırladaq ki, Lavrov daha əvvəl bəyan etmişdi ki, Ukraynada münaqişənin cəbhə xətti boyunca dondurulması Rusiya Konstitusiyasının müddəalarına görə mümkün deyil.

***Gülayə Mecid***

# Rusiyada hökumət binasına qumbara atılıb



***Samara vilayəti hökumətinin binasının eyvanına bir nəfər partlayıcı qurğu atıb.***

"Unikal" xəbər verir ki, bu barədə vilayətin qubernatoru Vyaçeslav Fedorişev öz "Telegram" kanalında məlumat verib.

Hadisə nəticəsində binaya ziyan dəyib. İtkilər barədə məlumat yoxdur.

# "Fransa Ukrayna danışıqlarının bir hissəsi olmaq istəyir" - Nazir



***"Paris Vaşinqton və Kiyev arasında münaqişələrin həlli məsələləri ilə birlikdə mineral ehtiyatlar üzrə danışıqların bir hissəsi olmaq istəyir".***

"Unikal" xəbər verir ki, bunu Fransanın müdafiə naziri Sebastien Lecornu "Franceinfo" radiosuna danışıb.

"ABŞ və Ukrayna arasında bu razılaşmanın bağlanması lazımdır. Amma siz bilməlisiniz ki, mən özüm ukraynalı həmkarımla müdafiə sahəsində ehtiyaclarımızı müzakirə edirəm ", - Lekornu bildirib. O qeyd edib ki, Paris Kiyevdən təzminat tələb etmir. Lecornu vurğulayıb ki, Fransa müdafiə sisteminin növbəti 30-40 il ərzində ölkənin silah sistemi üçün açar olan resurslara ehtiyacı var. O əlavə edib ki, o, Fransa prezidenti Emmanuel Makrondan da Kiyevlə müzakirələrə girməyi xahiş edib.

***Gülayə Mecid***

# "Vardanyan bilmirdi ki, ona qarşı istifadə olunacaq sözlər demək olmaz?" - Köçəryan

***Ermənistan parlamentinin hakim partiyasının deputatı Andranik Köçəryan hazırda Bakıda məhkəmə prosesi keçirilən Ruben Vardanyandan danışıb.***



"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Deputatın sözlərinə görə, Vardanyanın vaxtilə dedikləri bu gün ona qarşı istifadə olunur: "Ruben Vardanyan imkanlı adamdır. Vardanyan vaxtilə o qədər şeylər demişdi ki, bu gün onlardan ona qarşı istifadə olunur. Bilmirsənmi ki, sənə qarşı istifadə olunacaq sözlər demək olmaz?

Təhlükəsizlik işçiləri var, onlar anlamalı idilər ki, belə məmurları ələ keçirmək ölkə üçün təhlükədir. Biz İsrailin məntiqi ilə hərəkət edə bilmərik: sən get, hər şeyi danış, biz sənin arxanca gələcəyik, İsrail buna icazə verə bilər, amma biz edə bilmərik. Bunun üçün ölkəmizin bütün təhlükəsizlik şəbəkəsini bir neçə pillə qaldırmalıyıq".

***Ağarza Elçinoğlu***

# "Müharibənin sona çatmasının əlamətlərini görürük" - Fidan

***"Türkiyə rəhbərliyi Ukrayna münaqişəsinin tezliklə bitəcəyinə dair işarələr görür".***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan deyib.

"Açığını deyim ki, Ukraynadakı müharibəyə gəldikdə, biz onun sona çatmasının əlamətlərini görürük. Hansı şərtlərlə, atəşkəs necə əldə olunacaq - bütün bunlar müzakirə olunur", - Türkiyə XİN rəhbəri əlavə edib.

***Gülayə Mecid***



# Ukrayna ABŞ-nin iqtisadi müstəmləkəsi adlandırıldı

***ABŞ Ukrayna ilə nadir torpaq ehtiyatlarına dair razılaşma yolu ilə bu ölkəni faktiki olaraq özünün iqtisadi koloniyasına çevirir.***

"Unikal" xəbər verir ki, bu barədə Britaniyanın "The Telegraph" nəşri yazıb.



Nəşrin məqaləsində qeyd edildiyi kimi, faydalı qazıntılar üzrə ABŞ-Ukrayna sazişinin tam şərtləri hələ dərc olunmayıb, lakin sövdələşmənin Kiyev üçün sərfəli olmadığı açıq-aydın görünür.

"ABŞ prezidenti Ukraynanı faktiki olaraq iqtisadi müstəmləkəyə çevirəcək bir şey tələb etdi", - nəşrin hesabatında deyilir.

***Gülayə Mecid***

# HƏMAS dörd israilli məhbusun cəsədlərini təhvil verib

***Fələstinin HƏMAS qruplaşması israilli girovların cəsədlərini Qırmızı Xaç Cəmiyyətinə təhvil verib."***

"Unikal" xəbər verir ki, bu barədə "Əl-Cəzirə" telekanalı mənbələrə istinadən məlumat yayıb. "Qəzza zolağında əsir saxlanılan 4 israillinin cəsədi HƏMAS tərəfindən Qırmızı Xaç təşkilatına təhvil verilib", - məlumatda deyilir.

Mənbələrin telekanala verdiyi məlumata görə, cəsədlərin təhvil verilməsi mərasimsiz və jurnalistlərdən uzaqda, Qəzzanın cənubundakı Xan Yunisdə baş tutub.



# Peskovdan Rusiyanın tərkibinə daxil olmuş regionlarla bağlı açıqlama

***"Rusiya regionlarına çevrilən ərazilər ölkənin ayrılmaz hissəsidir, bu fakt müzakirə olunmur".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Kremlin mətbuat katibi Dmitri Peskov deyib.

O qeyd edib ki, Rusiya Federasiyasının tərkibinə daxil olan ərazilər Konstitusiyada göstərilib və "Rusiyanın tərkib hissəsidir". "Bu, tamamilə təkzibedilməz və müzakirə olunmayan faktdır ", - Peskov vurğulayıb.

Bundan əvvəl ABŞ prezidenti Donald Tramp bildirmişdi ki, Vaşinqton Rusiya ilə mümkün razılaşmanın bir hissəsi kimi Ukraynanın "mümkün qədər" geri qayıtmasını təmin etməyə çalışacaq.

Bildirək ki, Rusiya-Ukrayna müharibəsindən bəri (24.02.2022-ci il) Ukraynanın bəzi əraziləri xüsusilə Donetsk, Luqansk və digər bölgələri könüllü şəkildə Moskvanın nəzarəti altına keçdiyini açıqlamışdı.

***Gülayə Mecid***

# "Samvel Babayan əməliyyatlar zamanı tutulub Bakıya aparılmışdı" - Erməni deputat

***"Birinci Qarabağ müharibəsi zamanı da Bakıda olan dostlarımız var idi, amma o vaxt Sovet İttifaqı da var idi".***

"Unikal" xəbər verir ki, bunu erməni deputat Andranik Köçəryan deyib.

Deputatın sözlərinə görə, birinci Qarabağ müharibəsi zamanı OMON əməliyyatlar keçirərək bir neçə ermənini həbs edib: "Samvel Babayan və Manvel Qriqoryan var idi, onlar OMON-un əməliyyatları zamanı tutulub Şuşaya və Bakıya aparılıblar, lakin sonra mübadilə yolu ilə onları geri qaytarmaq imkanı olub. Məsələn, Samvel Babayan azərbaycanlı məmurla dəyişdirilib. Sonra məhbuslar məsələsi mübadilə yolu ilə həll edildi".

***Ağarza Elçinoğlu***

# Salah məhsuldarlıq rekordunu təkrarladı

***İngiltərənin "Liverpul" klubunun futbolçusu Məhəmməd Salah Premyer Liqada öz məhsuldarlıq rekordunu təkrarlayıb.***



"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, 32 yaşlı hücumçu bunu ölkə çempionatının XXVII turunda "Nyukasl"la oyunda (2:0) assist etməklə bacarıb.

Misirli oyunçu Mersisayd təmsilçisinin heyətində bu mövsüm 28 oyunda 25 qol vurub və 17 məhsuldar ötürmə edib. O, bundan əvvəl Premyer Liqada ən yaxşı nəticəsinə 2017/2018-ci illər mövsümündə imza atıb - 32 qol, 10 məhsuldar ötürmə.

Qeyd edək ki, Məhəmməd Salah bu mövsüm "Liverpul"un heyətində bütün turnirlərdə 39 matçda 30 qol və 22 məhsuldar ötürmə ilə yadda qalıb.

# AFFA-nın prezidenti Byorn Kuypersla görüşdü

***AFFA-nın prezidenti Rövşən Nəcəf Bakıda səfərdə olan UEFA Hakimlər Komitəsinin üzvü Byorn Kuypersla görüşüb.***

"Unikal" qurumun mətbuat xidmətinə istinadən xəbər verir ki, görüşdə AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev, baş katibi Cahangir Fərəcullayev və AFFA Hakimlər Komitəsinin sədri Frank De Bleker də iştirak ediblər. Azərbaycanda hakimliyin inkişaf yolları və gələcək perspektivləri mövzusunda fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, öz dövrünün ən yaxşı hakimlərindən biri hesab edilən Byorn Kuypers iki dəfə dünya (2014, 2018), üç dəfə Avropa çempionatının (2012, 2016, 2020) final mərhələsinin oyunlarına təyinat alıb. Niderlandlı FIFA referisi bir dəfə UEFA Çempionlar Liqasının (2014), iki dəfə UEFA



Avropa Liqasının (2013, 2018), bir dəfə isə Avropa çempionatının (AÇ-2020) final oyununu idarə edib.

# Qarlı hava problemlər yaradıb - PFL

***Peşəkar Futbol Liqası (PFL) bu gün Azərbaycan Kubokunda, 1-ci Liqa, 2-ci Liqa və Əvəzedicilər liqasında keçiriləcək oyunlar barədə bəyanat yayıb.***

Qurumdan "Unikal"a verilən məlumata görə, PFL-in bayrağı altında keçirilən bütün yarışlarda qeyri-sabit hava şəraiti ilə əlaqədar ümumi vəziyyətin nəzarət altında olduğu bildirilib.



"Ölkə ərazisində bir neçə gündür davam edən qeyri-sabit hava şəraiti müəyyən problemlərin yaşanmasına yol açıb. Oyunların keçiriləcəyi stadionlar qardan təmizlənir, klublar qırmızı toplarla təmin olunur. Oyunlarla bağlı hər hansı bir təxirəsalma olarsa, bu barədə Peşəkar Futbol Liqası tərəfindən rəsmi açıqlama veriləcək" , - deyə bəyanatda qeyd olunub.

# "Barselona" "Milan"ın futbolçusu ilə maraqlanır



***İspaniyanın "Barselona" klubu İtaliyanın "Milan" komandasının futbolçusu Rafael Leau ilə maraqlanır.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, 25 yaşlı hücumçu Kataloniya təmsilçisinin transfer siyahısında yer alır. Tərəflər arasında hələlik danışıqlar olmayıb. Portuqaliyalı forvard ötən ilin yanvar ayında Səudiyyə Ərəbistanı klubundan gələn sərfəli təklifi rədd etmişdi. Oyunçunun İtaliya təmsilçisi ilə müqaviləsinin müddəti 2028-ci ildə başa çatacaq.

Qeyd edək ki, Rafael Leau "Milan"ın heyətində bu mövsüm 33 oyunda 8 qol, 7 məhsuldar ötürmə ilə yadda qalıb.

# "Marsel"in prezidentinə 15 oyunluq cəza verildi

***Fransanın "Marsel" klubunun prezidenti Pablo Lonqoriya 15 oyunluq cəzalandırılıb.***

QOL.az xəbər verir ki, bu barədə Fransa Peşəkar Futbol Liqasının mətbuat xidməti məlumat yayıb.

Ağır cəzaya səbəb klub rəhbərinin futbolun imicinə xələl gətirən təhqiramiz ifadə və davranışlara yol verməsi olub.



Hadisə Liqa 1-in 23-cü turunda "Oser"lə matçda baş verib. "Marsel"in futbolçusu Derek Kornelius qırmızı vərəqə alandan sonra Pablo Lonqoriya matçın baş hakimi Ceremi Stinata "korrupsiya, əsl korrupsiya" deyə qışqırıb.

Klub prezidenti cəza səbəbindən Liqa 1-də mövsümün qalan oyunlarını buraxacaq. Onun cəzası növbəti mövsümün də bəzi oyunlarında davam edəcək.

Qeyd edək ki, "Marsel" Fransa çempionatında 23 turdan sonra 46 xalla ikinci pillədə qərarlaşıb.



# "Mançester Siti" "Tottenhem"i səfərdə məğlub etdi

***İngiltərə Premyer Liqasında 27-ci tur davam edir.***

"Unikal" xəbər verir ki, daha 5 oyunu keçirilib. Günün mərkəzi qarşılaşması Londonda oltub. Burada "Tottenhem" öz meydanında "Mançester Siti" ilə qarşılaşıb. Oyun qonaqların 1:0 hesablı qələbəsi ilə başa çatıb.

Lider "Liverpul" evdə "Nyukasl"ı məğlub edib. "Arsenal" ardıcıl ikinci dəfə xal itirib. Komanda səfərdə "Nottingem Forest"lə bacarmayıb.

**26 fevral**

İngiltərə Premyer Liqası
27-ci tur
"Tottenhem" - "Mançester Siti" - 0:1
Qol: Haaland, 12.
"Mançester Yunayted" - "İpsviç" - 3:2
Qollar: Morsi, 22-avtoqol, De Liqt, 26, Maquayr, 45 - Filogene, 4, 45+2
"Nottingem Forest" - "Arsenal" - 0:0
"Brentford" - "Everton" - 1:1
Qollar: Vissa, 45+4 - Breyn, 77
"Liverpul" - "Nyukasl" - 2:0
Qollar: Soboslai, 11. Makallister, 63.

Turnir cədvəlinə 67 xalla "Liverpul" başçılıq edir. "Arseanal" 54 xalla 2-ci, "Nottinqem" 48 xalla 3-cüdür. "Mançerster Siti"nin 47, "Çelsi"nin 45 xalı var.

# "Real"da ciddi itki

***"Real"ın yarımmüdafiəçisi Dani Sebalyos İspaniya kubokunun yarımfinalında "Real Sosyedad"la matçda zədələnib.***



QOL.az "Mundo Deportivo"ya istinadən xəbər verir ki, ispaniyalı futbolçu dizindən zədə alıb.

İlkin proqnozlara görə, 28 yaşlı oyunçu bir neçə ay oynamaya bilər. Təkrar müayinədən sonra onun durumu dəqiq bilinəcək.

Qeyd edək ki, ötən ilin payızında topuğu burxulduğuna görə 1 ay yaşıl meydanlardan kənarda qalan futbolçu bu mövsüm "Real"da 30 oyuna çıxıb və 2 qol ötürməsi edib.

# Van Damm ilk dəfə qızı olan fotosunu paylaşdı

***Dünya şöhrətli aktyor Jan-Klod Van Damm qızı ilə nadir fotosunu paylaşıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə sosial şəbəkədə paylaşım edib. Van Damm qızı ilə birlikdə çəkdirdiyi fotoya, "Mənim qürurum və sevincim", - şərhini yazıb.